**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Qocazadə Rəhim Xosrov**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**“____” _______________ 20__-ci il**

# “KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060407-Menecment

**İxtisaslaşma:** İnnovasiyaların və layihələrin idarə olunması

**Qrup:** 226

**Magistrant:**
**Qocazadə Rəhim Xosrov oğlu**
**____________________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Hüseynli Aytən Təyyar qızı**
**__________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**______________________imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_________________imza**

**BAKI – 2022**

**Elm andı**

Mən, Qocazadə Rəhim Xosrov oğlu and içirəm ki, "Kiçik və orta biznesin inkişafına təsir edən amillərin qiymətləndirilməsi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# KİÇİK VƏ ORTA SAHİBKARLARA TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: İqtisadiyyatın bir sektordan asılılığının qarşısını almaq məqsədilə digər sahələrin inkişaf etməsi üçün müəyyən şəraitin yaradılması və ya mövcud şəraitin optimallaşdırılması önəmli faktordur. Bu halların kiçik və orta sahibkarlıq subyektlərində daha əlverişli olması məsələni aktual hala gətirir.**

**Tədqiqatın məqsədi: Bu tədqiqatın məqsədi KOS-ların fəaliyyətinin qiymətləndirilməsi, onlar üçün biznes mühitinin yaradılması, dövlət qayğısının göstərilməsi və bəzi məhdudiyyətlərin aradan qaldırılması nəticəsində düzgün və sağlam iqtisadiyyatın yaranmasını əks etdirir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqatın aparılması zamanı Azərbaycanda fəaliyyət göstərən bəzi şirkətlərin təsisçi və direktorları ilə ölkədəki mövcud vəziyyətdən, fəaliyyətlərinə təsir edən amillər ilə bağlı müzakirələr aparılmış və onların təklifləri nəzərə alınmışdır.**

**Tədqiqatın informasiya bazası: Dissertasiya işinin tədqiqat hissəsində sahibkarlarla aparılmış müzakirələrin nəticələrindən, nəzəri hissəsində isə elektron resurslardan, xarici ədəbiyyatların elektron variantlarından, xarici dillərdə olan məqalə və elmi işlərdən istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat zamanı sahibkarlıq subyektləri barədə bəzi statistik məlumatların əldə olunması mümkün olmamış, sahibkarlarla müzakirə zamanı konfidensiallığın qorunması məqsədilə bəzi informasiyalar təqdim edilməmişdir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatımızdan aldığımız nəticələr Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunda olan problemlərin həlli yollarını tapmağa, sağlam biznes mühitinin yaradılmasına və bu mövzuda araşdırma edən tədqiqatçılara kömək olacaqdır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatımızın nəticələrindən Azərbaycan iqtisadiyyatının inkişafının təmin edilməsi məqsədilə müəyyən dövlət qurumlarında, dövlət fondlarında, güc və qanunvericilik strukturlarında, banklarda və maliyyə institutlarında bəzi dəyişikliklərin olunmasına istiqamət verilmişdir. Eyni zamanda mümkün olacağı qədər bu sahənin inkişafı üçün dövlət layihələrinin hazırlanması və öyrənilməsi üçün strateji istiqamətlərin artırılmasını təmin etmək məqsədilə xüsusi tədbirlərin həyata keçirilməsində də istifadə oluna bilər.**



***Açar sözlər: Sahibkarlıq, dövlət, inkişaf, qiymətləndirmə***

**THE MECHANISMS OF EVALUATION OF FACTORS AFFECTING SMALL AND MEDIUM ENTREPRENEURS**


## SUMMARY

**The actuality of the subject: In order to avoid the dependence of the economy on one sector, creating certain conditions for the development of other sectors is an important factor. This issue makes working with small and medium-sized businesses relevant.**

**Purpose and tasks of the research: The aim of the study is to evaluate the performance of SMEs and how they create a healthy economy.**

**Used research methods: During the research, interviews were held with the presidents of some companies on the current situation and the factors affecting their activities, and the suggestions were taken into consideration.**

**The information base of the research: In the research part of the thesis, the results of the discussions with entrepreneurs, and in the theoretical part, electronic versions of foreign literature, articles and scientific studies were used.**

**Restrictions of research: Requires more statistical and practical information. The novelty and practical results of the investigation: The results of our research will help researchers find solutions to the problems in the non-oil sector of the Azerbaijani economy and create a healthy business environment.**

**The novelty and practical results of investigation: The results of exploration will assist in finding out the solutions to the problems in non-oil sector and creating solid business environment in Azerbaijan economy.**

**Scientific-practical significance of results: The results of our research show that there are some changes in certain government institutions, funds, legislative structures, banks and financial institutions to enable the economy to thrive. It can also be used as much as possible in the implementation of special measures to increase the strategic directions for the preparation and examination of government projects for the development of the area.**



***Keywords: Entrepreneurship, government, development, evaluation***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **KOS** | Kiçik və Orta Sahibkarlar |
| **KOB** | Kiçik və Orta Biznes |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **IFC** | International Finance Corporation |
| **PCGS** | Professional Coin Grading Service |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **İT** | İnformasiya Texnologiyaları |
| **SİF** | Sahibkarlığın İnkişafı Fondu |
| **AKİA** | Aqrar Kredit və İnkişaf Agentliyi |
| **BOKT** | Bank Olmayan Kredit Təşkilatı |

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ...........................................................................................** | **8** |
| **I FƏSİL.** | **KİÇİK VƏ ORTA BİZNESİN NÖVLƏRİ.................................** | **13** |
| 1.1. | Kiçik və Orta Biznesin əsas növləri................................................ | 13 |
| 1.2. | İqtisadiyyatın inkişafında KOS – ların rolu................................... | 22 |
| **II FƏSİL.** | **KİÇİK VƏ ORTA SAHİBKARLARIN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ.....................................................** | **35** |
| 2.1. | KOBİA – nın fəaliyyətinin qiymətləndirilməsi.............................. | 35 |
| 2.2. | Maliyyə institutlarının və Bankların KOS – ların fəaliyyətinə təsiri........................................................................................... | 48 |
| **III FƏSİL.** | **GƏLƏCƏK DÖVRDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN AZƏRBAYCAN İQTİSADİYYATINDAKI PAYININ ARTIRILMASI YOLLARI…………………………...................................................** | **58** |
| 3.1. | KOS-lara qoyulan məhdudiyyətlər və onların aradan qaldırılması yolları.......................................................................................... | 58 |
| 3.2. | Azad olunmuş ərazilər və yeni sahibkarlıq subyektlərinin yaradılması..................................................................................... | 66 |
| 3.3. | Kiçik və orta sahibkarlara göstərilən diqqət.................................... | 70 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.......................................................** | **75** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.......................** | **77** |
| | Cədvəllərin siyahısı..................................................................... | 80 |
| | Qrafiklərin siyahısı..................................................................... | 81 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** İdeal bazar mühitinin yaradılmasında əsas dəyişənlərdən biri biznesin inkişafı və təkmilləşdirilməsidir. Hər bir iş adamı mənfəət və yeni vəzifələr tutmaq üçün, açıq şəkildə desək, başqa bazar yaratmaq üçün işdə qazancını artırmağa, əmək və məhsulu cəmiyyətə çatdırmağa çalışır. Təbii ki, kiçik və orta sahibkarların yaratdığı yeni bazar iqtisadiyyatının dinamikliliyində, inkişafında və azad rəqabətliliyində başlıca rolu mövcuddur.

Dövlətin bazara təsir edən amillərdən biri olması danılmaz faktdır. Belə ki, dövlətimiz kiçik və orta biznes mühitinin yaranması və inkişafı üçün bir sıra tədbir və layihələr həyata keçirmişdir. Atılan addımlarda sahibkarlar üçün böyük şanslar yaradılmış və biznesin inkişafı üçün dövlət tərəfindən lazımi dəstək göstərilmişdir. Lakin, bu sektorda bir sıra problemlər hələ də qalmaqdadır. Buna baxmayaraq dövlət sahibkarlıq fəaliyyətini düzgün qiymətləndirməli, strateji siyasətini davamlı və dayanıqlı etməlidir.

Qiymətləndirmə, kiçik və orta biznesin kapital qoyuluşu, maliyyə və vergi məsələlərinin mürəkkəbliliyinin, informasiya bazasının aşağı səviyyədə olmasının, ölkə üzrə qeyri-bərabər səpələnməsinin daxili səbəblərinin müəyyənləşdirilməsi və sahibkarlara daha sərfəli, uyğun olan şansların yaradılmasıdır. Qanunvericiliyin əhatə dairəsinin natamam olması, bazarda olan inhisarçılıq meyilləri kiçik və orta biznesin qiymətləndirilməsinin vacibliyini əks etdirir.

İqtisadiyyatın dinamik inkişafı üçün optimal şəraitin qurulması, bazar mühitində sağlam rəqabətin yaradılması, məşğulluq səviyyəsinin artımı və digər nüanslar baxımından KOS-lar sahibkarlıq sistemində önəmli rola malikdirlər.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tədqiqat zamanı Azərbaycandakı kiçik və orta sahibkarlara yaradılan problemlər araşdırılmış, müasir şəraitdə həlli yolları təhlil edilmiş, buna uyğun metodlar, çıxış yolları ortaya qoyulmuşdur. Bu problemin həm dövlətin maraq dairəsində olması, həm də çalışan şəxsin bank

sektorunda KOS müştərilərlə işləməsi ilə bağlı olması mövzunun araşdırılmasını mütləq etmişdir. Xüsusilə, tədqiqat zamanı Azərbaycanda olan kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərlə, biznesmenlərlə danışılmış və onların fikirləri öyrənilmişdir.

Bu sahənin öyrənilməsi dövlətin, dünyanın, əsasən iqtisadçıların marağını əks etdirdiyi üçün araşdırma zamanı bir çox kitablar, məqalələr və fikirlər dəyərləndirilmiş və araşdırılmışdır. Dünyada baş verən hər bir dəyişikliyin iqtisadiyyata təsir göstərməsi və həm dövlətlər, həm də KOS-lar üçün önəm kəsb etməsi bu sahənin öyrənilməsini və hər an yenilənməsini vacib edir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın predmetini sahibkarlıq sistemində kiçik və orta sahibkarlıq fəaliyyətinin təsnifləşdirilməsi və iqtisadiyyatdakı rolunun öyrənilməsi, obyektini isə Azərbaycanda kiçik və orta sahibkarlıq qanunvericilik bazası və onun inkişafı üçün həm dövlət, həm də qeyri-dövlət strukturlarının dəstəyinin, təkminləşdirilmə imkanlarının araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** İqtisadiyyatın sağlamlaşdırılması üçün əlverişli şəraitin yaradılması, rəqabətqabilyyətliyin inkişafı, iş yerlərinin yenidən qurulmasının fəallaşması, istehlak sənayesinin genişlənməsinin təmin edilməsi baxımından kiçik və orta sahibkarlar sahibkarlıq sistemində əhəmiyyətli rola malikdirlər.

Sahibkarlıq fəaliyyəti bu gün iqtisadiyyatın gəldiyi nöqtədə vacib bir mövqeyə malikdir. Dünyada bir çox ölkələrdə müşahidə olunan Resurs Sindromu Azərbaycanda da hiss olunur. Təbii ki, bu hal dövlətin, ölkə iqtisadiyyatının bir resursdan asılılığını əks etdirir və riskin əsasən bir sektorda cəmləşməsini təzahür etdirir. Bu vəziyyət olduğu müddətcə dövlət bu hala biganə qala bilməz, ölkə iqtisadiyyatının intensiv inkişafını təmin etmək üçün, əhalinin ehtiyaclarını təmin etmək və sosial rifahın yüksəlməsini nəzərə alaraq bu asılılıqdan azad olmaq və digər sahələrin inkişafını təmin etmək dövlət qarşısında olan önəmli öhdəliklərdən biridir.

Asılılıqdan çıxış yolu isə iqtisadiyyatın digər sahələrini inkişaf etdirməkdir ki, bu da kiçik və orta sahibkarlıq fəaliyyətinin olmasını məcbur qılır.

Əsasən, inkişaf etməkdə olan ölkələrdə olduğu kimi Azərbaycanda da kiçik və orta biznesin inkişafı iqtisadiyyatın şaxələndirilməsi, rəqabət qabiliyyətinin artırılması, məşğulluq fəaliyyətinin təmin edilməsi, əhali üçün istehlak məhsullarının hazırlanması və onların yerli resurslar hesabına ödənilməsi dövlət üçün qarşıda duran əsas hədəflərdən biridir. Dövlətin son illərdə qeyri-neft sektorunun inkişafına göstərdiyi təşəbbüs sahibkarların biznes fəaliyyətinə olan marağının artmasına zəmin yaratmışdır.

Son illərdə sahibkarlıq fəaliyyətinin yüksək qiymətləndirilməsi, onların inkişafını təmin etmək üçün dövlət tərəfindən yeni layihələrin yaradılması, bankların və maliyyə institutlarının sahibkarların sayının artması və fəaliyyətlərinin genişlənməsi üçün güzəştlərin və daha sərfəli təkliflərin etməsi dövlətin ÜDM-də qeyri-neft sektorunun payının artmasına səbəb olmuşdur. Əsasən, kənd təsərrüfatı, turizm, tikinti, yüngül sənaye və digər sahələrin ÜDM-də olan payının artması resurs sindromundan qismən azad olmağı göstərən bariz nümunələrdən biridir.

Kiçik və orta biznesin rəqabəti müdafiə etməsi iqtisadiyyatda ən böyük rollarından biri hesab olunur. Ölkədə rəqabət mühitini möhkəmləndirmək üçün bu sahənin inkişaf etdirilməsi çox önəmlidir. Ölkədə yeni iş yerlərinin formalaşmasına şərait yaratması bu sahənin iqtisadiyyata ən böyük töhfələrindəndir. Kiçik və orta sahibkarlar az investisiya edərək daha çox və müxtəlif məhsul istehsal edə bilirlər. Həmçinin, iş imkanlarını yaratmaq üçün az investisiya xərcləri çəkmək mümkündür. Tələbatdakı dəyişikliklərə və müxtəlifliklərə daha rahat uyğunlaşa bilirlər. Ölkədə məşğulluğun təmin olunmasında kiçik və orta müəssisələrin əvəzsiz rolu var. Bu sektor həm də dövlətlərin böhrana qarşı əsas müdafiə üsullarından biridir. Çünki, ölkə iqtisadiyyatında böhranın dərinləşməsi böhran dövründə iri müəssisələrin müflisləşməsidir.. Lakin kiçik və orta sahibkarlıq fəaliyyəti göstərən müəssisələrdə belə risklər daha aşağı qiymətləndirilir. Kiçik və orta sahibkarlıq subyektləri böhran

dönəmində sosial-iqtisadi sabitliyi təmin edə bilir və mövcud vəziyyətə daha tez reaksiya göstərə bilirlər.

**Tədqiqat metodları:** Tədqiqatın aparılması zamanı Azərbaycanda fəaliyyət göstərən bəzi şirkətlərin təsisçi və direktorları ilə ölkədəki mövcud vəziyyətdən, fəaliyyətlərinə təsir edən amillər ilə bağlı müzakirələr aparılmış və onların təklifləri nəzərə alınmışdır. Əlavə olaraq isə tədqiqatçının peşəkar fəaliyyəti kiçik və orta sahibkarlarla bağlı olduğu üçün gündəlik müşahidə əsasında da nəticələr əldə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin araşdırma hissəsində sahibkarlarla həyata keçirilən müzakirələrin nəticələrindən, nəzəri hissəsində isə elektron vəsaitlərdən, xarici ədəbiyyatın e-versiyalarından, xarici dillərdə məqalələrdən və elmi xidmətlərdən istifadə olunub.

**Tədqiqatın məhdudiyyətləri:** Azərbaycan iqtisadiyyatında yeni-yeni kiçik və orta sahibkarlıq subyektləri yaranmasına baxmayaraq onların tənzimlənməsi, intensiv inkişafı, onlara nəzarət edilməsi baxımından bəzi məhdudiyyətlər, bəzi problemlər mövcuddur. Dövlət sahibkarlara dəstəyini həm açıq şəkildə, həm digər vasitələrlə göstərməsinə baxmayaraq qurulmuş mexanizmlərin axıcı olaraq fəaliyyət göstərməməsi kiçik və orta sahibkarlıq subyektlərində boşluqların hələ də qalmasına səbəb olur. Bu boşluqların olmasının əsas səbəbkarları sahibkarların biznes fəaliyyəti ilə bağlı məlumatlarını tam düzgün əks etdirməməsi, bəzi qayda və qanunlara tam düzgün riayət etməməsi, dövlətə olan vergi və rüsumlardan yayınma kimi hallarının olmasıdır. Bu kimi boşluqlar bu sahənin tam dəqiq araşdırılmasını və inkişafını ləngitməyə davam edir. Bu kimi halların yaradıcıları bu sahələrdən uzaqlaşdırılmalı, müvafiq qanunlara əsasən cinayətə cəlb olunmalıdırlar. Kiçik və orta sahibkarlıq subyektləri haqqında məlumatların sızdırılması, konfidensiallığın qorunmaması kimi hallların olması bəzi sahibkarlarda inamsızlıq, bəzi fond və banklara etimadsızlıq yaratmaqdadır. Təbii ki, dövlət və müvafiq qurumlar bu məsələ ilə bağlı tədbirlər görməkdədir, lakin tədqiqatın araşdırılması və təkliflərin verilməsində

məhdudiyyətlər hələ də qalmaqdır. Sahibkarlıq subyektlərinin tam olaraq rəsmi şəkildə fəaliyyət göstərməsi, maliyyə məlumatlarını düzgün əks etdirməsi dövlət üçün prioritet mövzudur. Bu kimi problemlərin tədqiq olunan sahədə qalması sektorun qiymətləndirilməsində, ona dəstəyin göstərilməsində məhdudiyyətlər yaratmaqdadır.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiya işinin hazırlanması zamanı ən son statistik məlumatlara, son illərin qlobal mövzularına əsaslanmış və tədqiqata əlavə olunmuşdur. Tədqiqatdan əldə olunan nəticələr Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunda olan problemlərin həlli yollarını tapmağa, sağlam biznes mühitinin yaradılmasına və bu mövzuda araşdırma edən tədqiqatçılara kömək olacaqdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın nəticələrindən Azərbaycan iqtisadiyyatının inkişafının təmin edilməsi məqsədilə müəyyən dövlət qurumlarında, dövlət fondlarında, güc və qanunvericilik strukturlarında, banklarda və digər maliyyə institutlarında bəzi dəyişikliklərin olmasına istiqamət verilmişdir. Eyni zamanda mümkün olduğu qədər bu sahənin inkişafı üçün dövlət layihələrinin hazırlanmasını və öyrənilməsi üçün strateji istiqamətlərin artırılmasını təmin etmək məqsədilə xüsusi tədbirlərin həyata keçirilməsində də istifadə oluna bilər.

# I FƏSİL. KİÇİK VƏ ORTA BİZNESİN NÖVLƏRİ

## 1.1. Kiçik və Orta Biznesin əsas növləri

Yeni iqtisadi kitablarda KOS-ların fəaliyyəti ilə bağlı bəzi fikirlər vardır. Bunların çoxunda kommersiyanı alqı-satqı prosesi kimi nəzərə alırlar. Aydındır ki, bu fikri qəbul etmək olmaz. Prof. L.V.Osipova öz kitabında biznes haqqında belə qeyd edir:

- Kiçik və orta biznesin fəaliyyəti ticarətin iqtisadi anlayışından daha genişdir, çünki ticarətin əsasını biznes təşkil etsə də, bütün sahibkarlıq fəaliyyəti ticarət hesab edilmir.

Ticarət fəaliyyəti bir növ insan fəaliyyəti kimi ticarətlə əlaqələndirilir.

Sahibkarlıq fəaliyyətinin bir növü olan ticarət malların alqı-satqısı ilə bağlıdır. İstehlakçıları keyfiyyətli və əlverişli qiymətə geniş çeşiddə mallarla təmin etmək ticarət fəaliyyətinin əsas sosial məqsədidir. Ticarət fəaliyyəti malların hansı məqsədlə alınmasına görə iki yerə bölünür:

- topdan satış;
- pərakəndə satış.

Topdan satış ticarəti şəxsi, ailə, məişət, sahibkarlıq fəaliyyətində istifadə və ya digər oxşar istifadə ilə bağlı olmayan digər məqsədlər üçün malların alqı-satqısı ilə bağlı ticarət fəaliyyəti növüdür.

Pərakəndə ticarət şəxsi, ailə, məişət və sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan digər məqsədlər üçün istifadə məqsədilə malların alqı-satqısı ilə bağlı ticarət fəaliyyətinin növüdür (Селезнев В., 2012: c.656).

Ticarət fəaliyyətində məhsulun paylanması pərakəndə satışda tamamlanır. Satıcı ilə alıcı arasında yaranan münasibətlər pərakəndə satış mərhələsində, pərakəndə alqı-satqı müqaviləsi əsasında qurulur.

Biznes material ehtiyatlarının təchizatçılardan istehlakçılara çatdırılması üzrə olan əməliyyatların yerinə yetirilməsi ilə bağlı fəaliyyətdir. Bu əməliyyatlara aşağıdakılar daxildir:

- məhsulun hərəkəti prosesində nəqliyyat və vasitəçilik təşkilatlarının anbarlarında - onun qəbulu, tam partiyaların formalaşması, göndərilməsi və saxlanması;
- istehsalçılar üçün - göndərilməsi, məhsulların göndərilməyə hazırlanması, məzuniyyəti və onun sənədləşdirilməsi;
- istehlakçı müəssisələrin anbarlarında - saxlanması, məhsulların keyfiyyət və kəmiyyət baxımından qəbulu, saxlanması, materialların iş yerlərinə çatdırılması, buraxılması və alınmış materialların istehsal-istehlakı üçün yüksək texnoloji hazırlıq səviyyəsinə çatdırılması.

KOS-ların fəaliyyəti əmtəə bazarındakı sahibkarlıq fəaliyyətinin bir hissəsidir və bu fəaliyyət sahəsi təkcə malların və ya xidmətlərin verilməsi prosesini əhatə etmir, eyni zamanda, işçilərinin əmək məhsullarını təklif edən hər hansı bir təşkilat satış subyektləri kateqoriyasına aid edilə bilər. Sahibkar malların satışından və ya xidmətlərin göstərilməsindən həmin məhsulların yaradılması dəyərindən artıq gəlir əldə etməyi nəzərdə tutursa, onun fəaliyyəti adətən biznes fəaliyyəti kimi təsnif edilir.

Bunu da qeyd edək ki, sahibkarlıq fəaliyyəti adətən biznes prosesləri ilə məhdudlaşmır. Bu fəaliyyət məhsul və ya xidmətlərin istehsal və inkişafını da əhatə edə bilər. Bundan əlavə, alqı-satqının həyata keçirilməsi ilə bağlı fəaliyyətlər təkcə ticarət müəssisələri tərəfindən deyil, bəlkə də bütün sahibkarlıq növlərində həyata keçirilir. Məhz bu səbəbdən hər hansı bir müasir təşkilat biznes işlərini necə aparmağı bilən öz işində peşəkar mütəxəssisləri işə götürməlidir.

KOS-ların fəaliyyəti bir çox iqtisadçıların fikrincə əmtəə və ya xidmətlərin istehsalı prosesini nəzərə almır, lakin malların alqı-satqısına zəmanət verən əməliyyatların bütün spektrini əhatələyir. Satış heyətibiznes fəaliyyətinin

formalaşmasında mühim rol oynayır. Mütəxəssislərin fikrincə ticarət münasibətlərində iki əsas subyektdən biri olan satıcıların alıcılarla olan münasibətlərində bu amillər mühim rol oynayır: - Qəbul olunan bilik və təcrübə, hiss olunan güvən, satıcı tərəfindən istehlakçıları məlumatlandırma və vəziyyətə uyğunlaşma amilləri.

KOS-ların fəaliyyətinin məzmununu əks etdirən əsas elementlərə aşağıdakılar daxildir:

- bazarda malların təşviqi, tələbatın formalaşmasının təmin edilməsi, malların satışının stimullaşdırılması istiqamətində iş aparmaq;

- mallara ehtiyacın müəyyən edilməsi;

-biznes fəaliyyətinin informasiya təminatı;

- iqtisadi əlaqələrin və paylama kanallarının yaradılması üçün tərəfdaşların seçilməsi;

- malların topdan satışı üzrəbiznes fəaliyyəti;

- xidmətlərin göstərilməsi, malların xidməti dəstəyi;

- tərəfdaşlar arasında iqtisadi əlaqələr yaratmaq üçünbiznes fəaliyyəti;

- malların topdan satış alışının təşkili;

- malların pərakəndə satışının təşkili üzrəbiznes fəaliyyəti; -

ticarət təşkilatı üçünbiznes strategiyalarının hazırlanması; -

Əmtəə ehtiyatlarının idarə edilməsi.

KOS-ların fəaliyyətinin obyektləri dedikdə mal və xidmətlər,biznes fəaliyyətinin subyektləri dedikdə isə onu həyata keçirmək hüququna malik olan hüquqi və fiziki şəxslər nəzərdə tutulur (Хашковская О.А., 2014: с.149—153). Biznes fəaliyyətinin müvəffəqiyyəti istehlakçıların ehtiyaclarını başa düşməsindən, birbaşa bazarın mövcud vəziyyətini bilməkdən və hazırda tələb olunan mal çeşidini təklif etməklə onları ödəmək qabiliyyətindən asılıdır. Məhz bu səbəbdən məhsul çeşidinin idarə edilməsi, tanıtım fəaliyyətləri və xidmətin göstərilməsi, biznes fəaliyyətlərinə istehlakçı tələbinin tədqiqi daxildir. Bununla yanaşıbiznes işçiləri seçimi şərtləndirən

amillərdən ən yaxşı təchizatçıları axtarmaq və seçmək, onlarla müqavilələr bağlamaq, malların daşınmasını təşkil etmək, həmçinin rasional əmtəə ehtiyatlarını yaratmaq və saxlamaq bacarıqlarına malik olmalıdırlar.

KOS-ların fəaliyyəti mənfəət əldə etmək həmçinin, hüquqi və fiziki şəxslərin mövcud tələbatını ödəmək məqsədi ilə alqı-satqı əməliyyatlarının həyata keçirilməsi ilə bağlı olan bir fəaliyyətidir.

Bir sıra dövlətlərin təcrübəsi göstərir ki, biznes sektoru iqtisadiyyata dolayı və məqsədyönlü dövlət müdaxiləsini inkar etməyən iqtisadi azadlığın təmin edilməsi şərti ilə daha səmərəli inkişaf edir. Xüsusilə, ABŞ iqtisadiyyata və biznesin üstünlük təşkil etdiyi ictimai həyatın sahələrinə dolayı təsir modelindən istifadə edir. Bu ölkədə heç vaxt əhəmiyyətli dövlət sektoru olmayıb. Almaniya 1940-cı illərin sonlarında Almaniyanın İqtisadiyyat Naziri, sonra isə kansleri L.Erhard tərəfindən həyata keçirilməyə başlayan ordoliberal məktəbin nümayəndələri - alman iqtisadçıları tərəfindən hazırlanmış sosial bazar iqtisadiyyatı modelini həyata keçirir. O, xüsusi mülkiyyətə, rəqabətə, sərbəst qiymətə, əməyin, kapitalın, əmtəə və xidmətlərin tam hərəkət azadlığına əsaslanır. Modelin mahiyyəti təsərrüfat subyektlərinin fərdi maraqları ilə dövlətin sosial məsuliyyətinin birləşməsidir. Yaponiya yapon mentalitetini və ənənələrini nəzərə alaraq sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin xüsusi üsullarından istifadə edir. Onların mahiyyəti ondan ibarətdir ki, onlar məsləhət xarakteri daşıyır, lakin sahibkarlar tərəfindən məcburi olaraq qəbul edilir. Biznes və hökumət arasında münasibətlərin xarakteri razılıq əldə etmək, icraya razılıq vermək, könüllü əməkdaşlıq və tərəfdaşlığa əsaslanır. Nəticədə, kiçik və orta biznes sektoru (bundan sonra KOB) inkişaf etmiş ölkələrin ÜDM-nin yarıdan çoxunu təşkil edir.

27 Avropa ölkəsində kiçik və orta müəssisələrin fəaliyyətinin təhlili kiçik və orta müəssisələrin əlavə dəyərə (57%) əhəmiyyətli töhfə verdiyini göstərir ki, onların ölçüsü iqtisadi sektorlara görə dəyişir.

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi üzrə dünya təcrübəsinin öyrənilməsi əsas prinsipləri müəyyən etməyə imkan verdi ki, onların həyata keçirilməsi dövlət orqanlarına iqtisadiyyatda özəl sektorun fəaliyyətinin planlaşdırılmış göstəricilərinə nail olmağa imkan verir:

*prinsip 1* - iqtisadi azadlıq: sahibkarlıq fəaliyyətinin forma və növlərini seçmək, şəxsi vəsaitlərin bölüşdürülməsi və istifadəsi, əmlakın əldə edilməsi və satışı, həmkarlar ittifaqlarında iştirak azadlığı;

*prinsip 2* - kommunal xidmət: dövlət sahibkarlıq fəaliyyətinin ictimai faydalı növlərini təşviq etməli və cinayətkar biznesə qarşı mübarizə aparmalıdır.

*prinsip 3* - differensiasiya: dövlətin iqtisadi fəaliyyətin müəyyən növlərinə təsiri konkret sahibkarlıq fəaliyyəti növünün sosial əhəmiyyətinin müxtəlif dərəcəsindən asılı olaraq fərqlənməlidir;

*prinsip 4* - şəffaflıq: normativ aktlar uyğunsuzluqlara və digər şərhlərə yol verməyən sadə və aydın təqdimat formasına malik olmalıdır; bütün mülkiyyət formalı müəssisələr üçün bərabər şərtlərlə müxtəlif dövlət mexanizmləri və müsabiqələr keçirilməlidir;

*prinsip 5* - məlumatlılıq: dövlət biznes strukturları üçün sərbəst giriş rejimində vahid informasiya məkanını formalaşdırmalı, strukturlaşdırmalı və təşkil etməli, biznesin aparılması üçün iqtisadi, hüquqi və təşkilati şəraitdə baş verən dəyişikliklər barədə vaxtında məlumat verməlidir;

*prinsip 6* - ədalətlilik: dövlət dəstəyinin, güzəştlərin və imtiyazların təmin edilməsi sistemi şəffaf və obyektiv olmalı, vəzifəli şəxslərin və dövlət orqanlarının subyektiv üstünlüklərindən asılı olmamalıdır;

*prinsip 7* - bərabər biznes şəraiti: biznesin tənzimlənməsi sistemi inhisarçılıq təzahürlərindən azad olmalı, dövlət müəssisələrinin və ya iri biznes strukturlarının maraqlarının mümkün lobbiçiliyini, habelə güc strukturlarında korrupsiya təzahürlərini istisna etməlidir;

*prinsip 8* - adekvatlıq: sanksiyaların və digər hüquq-mühafizə tədbirlərinin tətbiqi dəymiş zərərə mütənasib olmalıdır;

*prinsip 9* - sistemlilik: mümkün ziddiyyətlərin aradan qaldırılması üçün yeni normativ hüquqi aktların tətbiqi dövlət tənzimlənməsinin mövcud hüquqi normalarına, habelə beynəlxalq qanunvericilik aktlarına və öhdəliklərə uyğun olmalıdır;

*prinsip 10* - ardıcıllıq: sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi üsulları makroiqtisadi siyasətin digər hədəf prioritetləri və metodları ilə uyğun olmalıdır;

*prinsip 11* - səmərəlilik: biznesin tənzimlənməsi sistemi ona nail olmaq üçün xərcləri nisbi minimuma endirməklə maksimum mümkün effekt verməlidir.

Kiçik və orta müəssisələr resurslarını, gəlirlərini və eyni zamanda işçilərini müəyyən bir həddən aşağı saxlayan müəssisələrdir. Kiçik və orta sahibkarlığın meydana gəlməsi üçün hər bir ölkənin özünəməxsus xüsusiyyətləri olmalıdır. Müəyyən ölçü meyarlarına cavab verməli, şirkətin fəaliyyət göstərəcəyi sahə də düzgün analiz edilməlidir.

Kiçik ölçülü olmasına baxmayaraq kiçik və orta müəssisələr iqtisadiyyatda mühüm rol oynayır. Onların sayı iri firmalara nisbətən çoxluq təşkil edir, çox sayda insan işləyir, ümumilikdə təşəbbüskardırlar, yeniliyin formalaşmasında mühüm rol oynayırlar.

Kiçik və orta sahibkarlığın bir neçə növü mövcuddur:

**Fərdi sahibkarlıq**

Bu növ biznes yalnız bir nəfərə məxsusdur və onun tərəfindən idarə olunur. Bu biznes sahəsi hal-hazırda ən qədim və ən çox yayılmış sahibkarlıq növüdür. Fərdi sahibkarlar özləri üçün çalışan insanlardır. Əlbəttə, bu o demək deyil ki, burada yalnız bir işçi çalışa bilər. Fərdi sahibkar hər hansısa bir işi yerinə yetirmək üçün işçilər cəlb edə bilər. Bu biznes növündə kapital sahibkarın özünə məxsusdur, müəssisəni özü idarə edir və mənfəət qazanmağı hədəfləyir. Müəssisənin qazanacağı mənfəətə və yaxud itkilərə görə fərdi sahibkar özü məsuliyyət daşıyır. Bu növ biznes sahəsinə

misal olaraq balaca yerli mağazaları, gözəllik salonlarını, İT servis xidmətlərini göstərmək olar.

Fərdi sahibkarlığın müsbət cəhətləri aşağıdakılardan ibarətdir:

- Sahibkarın biznes üzərində tam nəzarəti;
- Digər biznes növlərinə nisbətən daha az xərc tələb etməsi;
- Daha çevik qərar verilə bilməsi;
- Sahibkarin bütün mənfəətə və aktivlərə yiyələnməsi;
- Maliyyə hesabatlarınım cəmiyyətə təqdim edilmə məcburiyyətinin olmaması və audit yoxlamasının tələb edilməməsi.
- Fərdi sahibkarlığın mənfi cəhətləri isə aşağıdakılardan ibarətdir:
- Sahibkar bütün borclara görə məsuliyyət daşıyır, limitsiz öhdəliyə malikdir;
- İşçilərin sayının az olmasına görə uzun iş saatlarına səbəb ola bilər;
- Xəstəlik və yaxud ölüm halı baş verdiyi zaman biznesin davam edə bilməməsi halı;
- Kapitalın asanlıqla artırıla bilməməsi;

**Korporasiyalar**

Korporasiya bir işi idarə etmək və qazancı bölüşmək üçün iki və ya daha çox tərəfin rəsmi razılaşmasıdır. Bu növ biznes sahəsinə misal olaraq mühasibatlıq, tibb, hüquq xidmətləri göstərən müəssisələri göstərmək olar. Sahibkarlığın bu növündə tərəfdaşlar borcları və mənfəəti bərabər bölüşdürür.

Korporasiyanin üstünlüklərinə aşağıdakıları misal göstərmək olar:

- Maliyyə hesabatlarının cəmiyyətə təqdim olunma məcburiyyətinin olmaması;
- Kapitalın rahatlıqla artırıla bilməsi, investisyalarin cəlb olunması;
- İş bölgüsünün rahatlıqla aparıla bilməsi;
- Risklərin və itkilərin bir neçə nəfər arasında bölüşdürülməsi;
- Korporasiyanın mənfi cəhətlərinə aşağıdakıları misal göstərmək olar:
- Tərəfdaşlar bütün borclara görə məsuliyyət daşıyırlar;

- Daha aşağı sürətlə qərar vermə qabiliyyəti;
- Tərəfadaşlardan birində ölüm və yaxud xəstəlik baş verdiyi zaman biznesin davam etməsində çətinliklərin yaranması;

**Məhdud Məsuliyyətli Cəmiyyət**

Bir şirkət kimi, bir məhdud məsuliyyətli cəmiyyət (MMC) ayrı və fərqli bir hüquqi şəxsdir. Bu o deməkdir ki, MMC-lərin hamısı öz adı altında vergi identifikasiya nömrəsi ala bilər, bank hesabları aça bilər və ticarət edə bilər.

Bir MMC-nin əsas üstünlüklərindən biri, üzv adlanan sahiblərinin məhdud məsuliyyət daşımalarıdır, yəni əksər hallarda MMC-nin borc və öhdəliklərinə görə şəxsən məsuliyyət daşımırlar. Məsələn, bir MMC iflas etmək məcburiyyətində qalarsa, üzvlərdən MMC-nin borclarını öz mülkləri və ya şəxsi vəsaitləri ilə ödəmələri tələb olunmayacaqdır. MMC-nin əmlakı borc və öhdəliklərə çatmırsa, kreditorlar həmin ödənişləri sahibkarlardan tələb edə bilməzlər. Bütün borclar MMC-yə məxsusdur, MMC-yə sahib olan insanlara məxsus deyildir.

MMC-nin digər üstün cəhətləri:

- MMC-lərdə investisya qoyuluşu daha az riskli hesab olunur;
- Maliyyələşmə daha sürətlə gedir;
- Digər sahibkarlıq növlərində olduğu kimi tərəfdaşlardan hansısa birinə baş verən xəstəlik və ya ölüm halı biznesin başa çatması mənasına gəlmir. Səhm bir sahibkardan digərinə asanlıqla ötürülə bilər;
- MMC-nin mənfi cəhətləri;
- MMC-lər maliyyə hesabatlarını ictimaiyyətə təqdim etməlidirlər;
- MMC-nin maliyyə hesabatları mütləq şəkildə audit olunmalıdır;

Dünyada yaradılmış sahibkarlıq subyektlərinin əksəriyyəti fərdi sahibkarlıq və məhdud məsuliyyətli cəmiyyət adı altında çıxış edir. Səbəb isə yuxarıda qeyd olunan üstünlüklərdir. Bu halı super iqtisadiyyata malik olan ABŞ-da da görə bilərik.

Amerika öz iqtisadiyyatında kiçik müəssisələrə xüsusi pay verir. THE PEW araşdırma mərkəzinin apardığı bir sorğuda ictimaiyyətin digər təşkilatlardan daha çoxunun sahədə müsbət düşüncəyə sahib olduqları aşkar edilmişdir. Elə bu səbəbdən Amerikada bir çox qubernatorlar, bələdiyyə sədrləri və prezident namizədləri öz çıxışları zamanı kiçik sahibkarlıq subyektlərini dəstəklədiklərini bildirməyə can atırlar.

Bu üç sahibkarlıq növü də Amerikada çox yayılmış biznes sahələridir və hər birinin Amerika iqtisadiyyatının canlanmasına töhfə verir.

Amerikada 28 milyon kiçik biznes var və onlar belə qruplaşdırılır:

Bunlardan təxmini 23 milyonu fərdi sahibkarlıqla məşğul olanlardır: İT mütəxəssisləri, rəssam və s. Bunlardan 15 milyonu illik 10000 ABŞ dollarından çox mənfəət qazanır. Son araşdırmalar fərdi sahibkarlığın rekord mənfəət əldə etdiyini göstərir və çoxsaylı göstəricilər texnologiyanın daha çox coğrafi elastiklik və davamlılığa imkan verməsi ilə bu müəssisələrin sayının artacağını proqnozlaşdırır.

Amerikada kiçik müəssisələrin növbəti ən böyük seqmenti korporasiyalardır. Onların sayı 4 milyona yaxındır. Bunlar gündəlik həyatımızın parçası olan kimyəvi təmizləmə, restoran, avtomobil təmiri, yerli pərakəndə satış şirkətləridir. Bu növ biznes sahəsi Amerikanın orta təbəqəsi üçün çox vacibdir.

Qalan bir milyondan artıq sahə isə MMC-lərin payına düşür.

Azərbaycanda sahibkarlığın növləri isə aşağıdakı meyarlara əsasən müəyyən olunur:

- Mikro sahibkar
- Kiçik sahibkar
- Orta sahibkar
- Böyük sahibkar

Mikro sahibkarlara işçilərinin sayı 1-10 nəfər, illik gəliri isə 200000-dək olanlar aid edilir.

Kiçik sahibkarların işçilərinin sayı 11-50, illik gəliri isə 200000-3000000 manat arasındadır.

Orta sahibkar dedikdə işçilərinim sayı 51-250, gəliri isə 3000000-30000000 manat arasında olan şəxslər nəzərdə tutulur.

İri sahibkalara isə işçilərinin sayı 251 və daha yuxarı, illik gəliri isə 30000000 manatdan çox olan şəxslər aid edilir.

**Cədvəl 1: Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü**

| **Sahibkarlıq subyektlərinin ölçüsü üzrə növləri** | **İşçilərinin orta illik sayı (nəfər)** | **İllik gəliri (ig) (min manat)** |
|---|---|---|
| Mikro sahibkar | 1 – 10 | 200-ə bərabər və daha çox |
| Kiçik sahibkar | 11 – 50 | 200-dən 3000-dək (3000 daxil olmaqla) |
| Orta sahibkar | 51 – 250 | 3000-dən 30000-dək (30000 daxil olmaqla) |
| İri sahibkar | 251 və daha yuxarı | 30000-dən artıq |

**Mənbə:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə təsdiq edilmişdir.
https://www.taxes.gov.az/az/page/mikro-kicik-orta-ve-iri-sahibkarliq-subyektlerinin-bolgusu-meyarlarinin-tesdiq-edilmesi, 2018

Cədvəl 1-də qeyd olunan meyarlara əsasən sahibkarların hansı sırada yer almasını müəyyən etmək mümkündür. Aşağıdakı qeydlərdə isə sual yarada biləcək məlumatlar nəzərə alınmışdır.

**Qeydlər:**

1. İllik gəlir dedikdə son 1 hesabat ili ərzində sahibkarlıq subyektinin gördüyü işlər, göstərdiyi xidmət və digər fəaliyyət üzrə gəlirlər nəzərdə tutulur.

2. Sahibkarların hansı kateqoriyaya aid olmasını müəyyənləşdirmək üçün işçilərin orta illik sayı və illik gəlir meyar göstəricilərindən daha üstün olanı rəhbər tutulur.

3. Yeni təsis edilmiş sahibkarlıq subyektlərinin müəyyən edilməsi onların müvafiq dövlət orqanında qeydiyyatdan keçdikdən sonra 1 illik hesabat dövrü ərzində gəlirləri üstün olarsa ona əsasən, işçilərin orta illik sayı daha yuxarı olduğu təqdirdə

isə həmin meyar əsasında həyata keçirilir.(https://www.taxes.gov.az/az/page/mikro-kicik-orta-ve-iri-sahibkarliq-subyektlerinin-bolgusu-meyarlarinin-tesdiq-edilmesi, 2018).

## 1.2. İqtisadiyyatın inkişafında KOS – ların rolu

Bazar iqtisadiyyatlarında KOS-lar iqtisadi inkişafın mühərrikidir. Kiçik və orta sahibkarlıq subyektləri özəl mülkiyyətləri, təşəbbüskarlıq ruhları, çevikliyi və uyğunlaşma qabiliyyətləri, çətinliklərə və dəyişən mühitlərə reaksiya göstərmək potensialları sayəsində davamlı böyüməyə və iş yerlərinin yaradılmasına əhəmiyyətli dərəcədə kömək edirlər.

Biz kiçik və orta sahibkarlığın iqtisadiyyatda rolunu qiymətləndirə bilərik və biznes fəaliyyətinin bir forması kimi kiçik biznes bu gün dünyada geniş vüsət alır və böyüyür. Bu fəaliyyət formasının geniş yayılması kiçik biznesin bir sıra üstünlükləri ilə əlaqələndirilir. Başqa sözlə desək, kiçik biznesin iqtisadiyyatda mühüm rollarından biri rəqabət mühitinin yaradılması və rəqabətin gücləndirilməsidir. Bu kiçik müəssisələr məşğulluğun artmasına və ya ölkə iqtisadiyyatında yeni iş yerlərinin yaradılmasına səbəb olur. Bundan əlavə, kiçik müəssisələrin insanların ehtiyaclarına daha həssas olduğu başa düşülür. Bununlada bazar konyukturunda baş verən dəyişikliklərə daha operativ və cəld formada reaksiya verə bilirlər. Hətta bu kiçik müəssisələrin yüksək dərəcədə inkişafı nəticəsində həmçinin istehsal olunan məhsulun daha çox insan və əhali arasında paylanılmasına nail olaraq, iqtisadi baxımdan daha eqalitar cəmiyyət yaratmağa kömək olur.

Azərbaycanda bazar iqtisadiyyatı münasibətlərinin tam olaraq formalaşması elə bir hissədədir ki, bu gün rəqabət iqtisadiyyatın inkişaf etməsinə tam olaraq təsir edə bilmir. Bu səbəblə də, ölkənin iqtisadi siyasəti iqtisadiyyatın inkişafının təmin edilməsinə istiqamətləndirilməlidir. Dövlətin iqtisadiyyatında açıq rəqabət şəraitinin formalaşdırılması, xüsusi sektorun hazırlanması, sahibkarlıq fəaliyyəti üçün və onun dinamik və məqsəd yönlü şəkildə inkişaf etməsi üçün biznes mühitinin

fəallaşdırılması hesabına mümkündür. Özəl şirkət də ölkədə sosial məsələlərin həlli üçün bir neçə dəyərli şans verir. Əsas sosial məsələ işsizliyin azaldılması və biznesin qayğısına qalmaqdır. Bu istiqamətdə, dövlətin spekulyasiya strategiyasının həyata keçirilməsi üçün açıq qapıların məhdudlaşdırılmasına baxmayaraq, ciddi kömək təklif etmək və işin izlənməsi ilə bağlı problemlərlə üzləşən şəxslər üçün potensial mövqelər yaradan müəssisə və firmalara təsir göstərmək üçün dəyərli şansların artırılması çox vacibdir.

Cəmiyyətin iqtisadi cəhətdən inkişafının əsas faktorlarından olan sahibkarlıq fəaliyyətinin  mümkün qədər inkişaf etdirilməsi onun məhz dövlət tərəfindən hansı mərhələdə və formada dəstək verilməsi ilə birbaşa əlaqəlidir. Başqa cür ifadə etsək, kiçik və orta biznesin dövlət tərəfindən tənzimlənməsi, biznesin inkişafına əlverişli, müsbət və səmərəli şəraitin formalaşdırılması bazar iqtisadiyyatı dövründə dövlətin əsas vəzifələrindən biridir.

Dövlət rəhbərliyinin düzgün təşkilinin və kiçik və orta müəssisələrin dəstəklənməsinin təməli kiçik səylər üçün, bununla yanaşı, ümumilikdə ölkə iqtisadiyyatı üçün mərkəzi əhəmiyyət kəsb edir. Bu müstəqil şirkətlər cəmiyyətin bir çox təbəqələrinin gündəlik rahatlıq gözləntiləri üzərində işləmək üçün böyük şanslar verir. Yeni mövqelər yaratmaqla və fərdlər üçün əhəmiyyətli əmək və məhsullar yaratmaqla, açıq-aydın onlar təmizlənməmiş komponentlər kimi müxtəlif əşyaların alıcısına çevrilirlər və müxtəlif millətlərin və bölgələrin pul tərəqqisinə əsaslı şəkildə təsir göstərirlər.

Kiçik və orta səviyyəli müəssisələrin ləğv edilə bilməsinin etirafı böyük ölçüdə onların əlçatanlığı və dəstək statusuna əsaslanır. Nəzərə almaq lazımdır ki, biz nağd pul bulaqlarının yaxşılaşdırılmasını araşdırırıq. Burada əsas mübahisə məqamı ondan ibarətdir ki, fərdi və məsuliyyət resurslarının nisbəti açıq şəkildə xarakterizə edilməlidir. Məxfi müəssisə çox vaxt öz resurslarının az hissəsi və kifayət qədər genişləndirilmiş nizamnamə kapitalı ilə təsvir olunur. AR-nın normativ hüquqi

aktlarında göstərildiyi kimi, özəl sahibkarlıq fəaliyyəti üçün yardım mənbəyi həm daxili, həm də xarici mənbələr ola bilər. (Слободняк, 2019: s. 16 - 18).

Maliyyələşmənin xarici mənbələri kiçik və orta biznes müəssisələri üçün büdcə vəsaitlərindən, məqsədli dövlət kreditlərdən, büdcədənkənar dövlət və qeyri-kommersiya fondlarının maliyyə vəsaitlərindən, banklarının qısa və uzun müddətli kreditlərindən, daha sonra qeyd edə bilərik ki qeyri-dövlət fondlarının maliyyə vəsaitlərindən (buraya pensiya, sığorta və s. aid etmək olar), müəssisələrin dövriyəyə buraxdığı səhmlərin vəsaitlərindən istifadə edilir. Kiçik bizines müəssisələrinin maliyyələşdirilməsinin başlıca daxili mənbələrinə bunlar daxildir: mənfəət, sahibkarların müəssisəyə verdiyi əmanətləri və pul yığımı, sığorta üzrə fəaliyyətinin vəsaitləri və s.

Özəl şirkət, müxtəlif xalqların iqtisadi çiçəklənməsinə təkan verən və əhalinin yaradılmasının bərpasına və maliyyə fəaliyyətinin artırılmasına möhkəm katalizator verən mühüm komponentdir. Özəl şirkət iqtisadiyyatın ən uyğunlaşa bilən və faydalı sahələrindən biri olmaqla yanaşı, maliyyə cəhətdən dinamik əhalinin böyük bir hissəsini istifadə edən ÜDM-in böyük bir hissəsinin istehsalıdır. Mövqeyinin formalaşmasına baxmayaraq, kiçik və orta ölçülü assosiasiyalar həqiqi, dinamik və ayrılmış iqtisadiyyatın qurulmasında mühüm rol oynayır. Bazar münasibətlərinin birləşməsi və inkişafı müxtəlif əmlak növlərinin pul komponentlərinin icrasını tələb edir. Kiçik biznes vizyonerlərinin böyük sosial hadisəsi kimi gedən azad bir təşkilat, əsasən, ölkənin maliyyə yaxşılaşma səviyyəsini təyin edir.. Ona görə də maariflənmiş xalqlarda olduğu kimi, Azərbaycanda da bu sahənin yaxşılaşdırılmasına fövqəladə fikir verilir. Şəxsi vençur sahəsində dövlət aktivlərinin böyük hissəsi hazırlanır və idarə olunur ki, bu da orta və nəhəng təşkilatlar üçün qida mühitidir. Kiçik müəssisələrin kiçik mexaniki yaradılması və rəhbər işçilərin uyğunlaşma qabiliyyəti onlara dəyişən iqtisadi vəziyyətləri dəqiq və uyğun şəkildə tənzimləməyə və cavab verməyə imkan verir. Özəl şirkət daha güclü yaradan sahə olmaqla makroiqtisadi iqlimə əsaslı təsir göstərə bilər. O, biznesin genişləndirilməsinə kömək edir,

sindikatların yüksəlişinin qarşısını alan bazar sisteminin həqiqi işini gücləndirir, beləliklə, kəskin iqlimin yaradılmasında mühüm komponent kimi gedir.

Kiçik və orta müəssisələr daxilində biznes təşəbbüsü bir neçə subyektiv elementə malikdir. Birinci vacib məsələ kimi, mülkiyyət azadlıqlarının həmrəyliyini və səyin birbaşa idarə olunmasını qeyd etmək vacibdir. İkincisi, element münasibətlərin özəl olmasına və deməli, işdə əsl təkmilləşdirməyə nail olmağa imkan verən öhdəliklərin məhdud miqyasıdır. Üçüncüsü, firmanın ümumiyyətlə bazara və maya dəyərinə təsir göstərməsinə imkan verməyən cüzi sövdələşmələr və aktiv bazarı var. Dördüncüsü, biznes vizyoner və müştəri arasında əlaqənin fərdiləşdirilmiş ideyası. İstinad etdiyimiz kimi, özəl şirkətlər alıcılara müstəsna olaraq məhdud sayda xidmət göstərmək niyyətindədir. Beşincisi, müəssisənin mövcudluğunda novatorun işi. O, yaradılış qarşılıqlı təsirinin hər bir sonrakı nəticələrinə görə məsuliyyət daşıyır. 6-cı, xüsusi element ailə işidir. Yeddinci element maliyyələşdirmə ideyasıdır. Orta və nəhəng müəssisələrin əsas aktivləri birja ticarəti və kapital biznesi sektorlarından aldığını fərz etsək, müstəqil şirkətlər bu aktivləri kiçik bank kreditləri, fərdi aktivlər və təsadüfi kapital biznes sektorlarından əldə edirlər. Digər əhəmiyyətli hissə, əsas kapitaldan fərqli olaraq, özəl müəssisələrdə dövriyyə kapitalının yüksək hissəsinin olmasıdır. Böyük müəssisələrdə bu nisbət 80:20, kiçik işlərdə bu nisbət 20:80-dir.

**Ölkədə kiçik bizines subyektlərinin əksəriyyəti paytaxt Bakıda düşür - 56.7%, bu biznes müəssisələrin geniş yayıldığı digər ikinci və üçüncü böyük regionlar uyğun olaraq Aran - 12.7% iqtisadi rayonu və Abşeron -7% iqtisadi rayonudur.**

Bu istiqamətdə inkişaf üçün artıq vacib addımlar atılmağa başlansa da, dünya təcrübəsindən faydalanaraq, başqa təşviq mexanizmlərinin respublika daxilində tətbiq olunması da yaxşı olar.

Son vaxtlara qədər bir çox inkişaf etməkdə olan iqtisadiyyatın özəl sektoru orta inkişaf səviyyəsini itirirdi. İnvestorlar, siyasətçilər və mütəxəssislər səylərinin böyük bir hissəsini 500-dən çox işçisi olan iri şirkətlərə, daha böyük təşkilatlara və ya

çoxmillətli şirkətlərə həsr etmişlər. Böyük Müəssisələr və Məhdud Məsuliyyətli Müəssisələr vergi təşviq və subsidiyalarının hədəfi idilər. Dünya Bankı və BMT-nin İnkişaf Proqramı kimi təşkilatlar isə ümumiyyətlə 5 nəfərdən az işçisi olan mikro müəssisələri dəstəkləməyə yönəldilər. Bu iki hədd arasında kiçik və orta sahibkarların müəssisələri var. Keçmişdə KOS-ların iqtisadiyyatın əsas aparıcı qüvvəsi olmadığı düşünülürdü, buna görə dövlət siyasətlərini onlara yönəltməyə dəyməzdi. Bununla birlikdə, son zamanlarda inkişaf etməkdə olan ölkələrin əsas seqmentlərində fəaliyyət göstərən KOS - ların təkcə investisiyalarla deyil, həm də işgüzar liderlərin, davamlı iqtisadiyyatın inkişafında kiçik və orta sahibkarların rolunu açıq şəkildə qəbul edən liderlər tərəfindən dəstəklənməsi üçün bir çox ümidverici təşəbbüslər olmuşdur.

Kiçik və orta sahibkarlıq subyektləri dünya ölkələrinin iqtisadiyyatında getdikcə daha çox mövcud olur. Bunlar hər biri ölkə iqtisadiyyatında aktiv olaraq qiymətləndirilir və faiz nisbəti aşağıdakı kimi göstərilir:

- Şirkətlərin sayı: 99%-dən çox olan (Yaponiya, ABŞ, Almaniya, Çin);
- İşçilərin sayı: Yaponiyada 66%, ABŞ-da 53%, Almaniyada 68%;
- Əlavə dəyər: Yaponiyada 55%, ABŞ-da 51%, Almaniyada 45%;

KOS-lar müxtəlif mal və xidmətlər təqdim etmək, iş imkanları yaratmaq, regional iqtisadiyyatları və icmaları inkişaf etdirmək, bazarda rəqabət etməyə kömək etmək və yeniliklər təqdim etməklə milli iqtisadiyyatda mühüm rol oynayırlar.

Əsas fəaliyyət sahələri istehsal sənayesi, dağıtım sənayesi və xidmətlər sənayesidir.

İstehsalat sənayesində, fərdlərin topladığı tarixən inkişaf etmiş bacarıqlardan istifadə edərək məhsul istehsal edirlər.

Növbə materialları və malları köçürülə bilən müddətdə məhdud olan əşyalar (qida və s.) istehsal edirlər.

Bir çox emal və istehsal metoduna sahib olan və iqtisadi cəhətdən səmərəliliyi ixtisaslar üzrə ixtisaslaşmaqla artırıla bilən iş sahələri (avtomobil, elektrik cihazları hissələri və dəstək sənayesi) yaradırlar.

Bazar həcmi böyük şirkətlərin girə bilməyəcəyi qədər kiçik məhsullar istehsal etmək kiçik və orta sahibkarların əsas xüsusiyyətlərindəndir.

Yenilikçi sahibkarların risk aldığı, yeni texnologiyaları kommersiyalaşdırdığı və yeni iş inkişaf etdirdiyi bazarlarda fəaliyyət göstərirlər.

Dağıtım sənayesində istehsalçılardan istehlakçılara müxtəlif malların səmərəli paylanması üçün fəaliyyət göstərirlər.

Xidmətlər sektorunda həm müəssisələrə, həm də fərdlərə göstərilən bir çox xidmətin mövcudluğu şəraitində fəaliyyət göstərir və vaxt, məsafədəki məhdudiyyətlər səbəbindən onları təmin etmək üçün bir çox kiçik və orta sahibkarlara ehtiyac duyulur.

Kiçik və orta sahibkarlar - iş imkanları yaratdıqları, regional iqtisadiyyatın sabitliyini və inkişafını təşviq etdikləri, iqtisadi tərəqqiyə kömək edən rəqabət və əməkdaşlığı təşviq edən və yüksək əlavə dəyər yaratdıqları üçün yaradıcılıq və yeniliklərin böyük bir hissəsini istehsal etdikləri üçün milli iqtisadiyyatların stimullaşdırılması və inkişafında böyük rol oynayırlar.

Məhsullar - çox sayda insan birbaşa və ya dolayı yolla kiçik və orta sahibkarlığa güvənir. Onlar əməyin udulmasına, yoxsulluğun azaldılmasına və gəlir əldə edilməsinə verdiyi töhfələrdə böyük rol oynayırlar. Bu sektorun kritik əhəmiyyəti, öz maraqlarına görə dövlət qurumları, elmi dairələr və transmilli şirkətlər daxil olmaqla bütün maraqlı tərəflərin diqqətini daha çox cəlb edir.

Dünyada KOS-lar yerli bazara mal və xidmətlər təqdim edən işçilər, müştərilər və təchizatçılar kimi görünürlər. Həm də hər hansı bir iqtisadiyyatda sahibkarlığın çox hissəsini təmin edirlər.

KOS-lar iqtisadiyyatlardakı sənayeləşmə istiqamətində inkişafın başlanğıc nöqtəsidir. Mövcud iri müəssisələrin əksəriyyətinin mənşəyi kiçik və orta biznesdədir.

Son bir neçə ildə sənayeləşmiş ölkələrdəki əlavə artım, əsasən kiçik və orta sahibkarların böyüməsi ilə əlaqədardır. Bazar iqtisadiyyatının kiçik və orta sahibkarlıq subyektlərinin yaradılması ilə başladığı və daha sonra KOS-ların dinamik

inkişaf etdirilməsi yolu ilə inkişaf etdiyi getdikcə daha çox qəbul edilir. Sahibkarlar şirkətlər qurur, iş qurur, idarəetmə mənbələrini əldə edir və ya dəyişdirir, işlərini toplayır və genişləndirir. Kiçik və orta sahibkarların bu fəaliyyətləri milli iqtisadiyyatın inkişafının əsas hərəkətverici qüvvəsini təmsil edir.

Hər bir effektiv iqtisadiyyat bütün niyyət və məqsəd üçün bir şeyi bölüşür: nəhəng təşkilatlar və kiçik və orta ölçülü təşkilatların optimal qarışığı. Kiçik və orta müəssisələr (kiçik və orta biznes vizyonerləri) adlanan bu kiçik təşkilatların korporativ səhnədə nəzərdən keçirilməsi pioner hərəkatının yaxşı bir şəkildə təşkilinə əlavə olunur.İqtisadiyyatın böyüməsi və texnoloji yenilik, yalnız bir növ iş həcminin əlində çox prioritet verildiyi təqdirdə zərər görə bilər. Hər hansı bir ölkədə iqtisadiyyatın inkişafının təmin edilməsi üçün KOS-lara dəstək verilməsinin vacibliyi əhəmiyyətli hesab edilir. Kiçik və orta sahibkarlar sağlam və canlı olduqda cəmiyyət üçün daha çox sayda fayda verirlər (Bayramov V., Hasanov R., Aghayarli L., Kadyrov Z., Aghahasanli İ., Isayev S. 2017).

Bilinən odur ki, dövlət gəlirlərinin böyük hissəsi neft sektorunda cəmlənməsi ölkə iqtisadiyyatı üçün böyük təhlükədir. Mövcüd vəziyyətdə neftin qiymətinin kəskin azalması gəlirlərin azalmasına, büdcədə kəskin defisit yaratmasına səbəb olmuşdur. Hal-hazırda neftin qiymətinin illik gözlənilən qiymətdən aşağı olması və qeyri-stabilliyi dövlətin digər sahələri prioritet seçməsini vacibləşdirir (Gentrit Berisha, Kosovo Justina Shiroka Pula, 2015).

Buna görə də dövlət aşağıdakı şərtlərin təmin olunmasının əhəməiyyətli olmasını bilir və bu istiqamətdə addımlar atır.

**Yerli iş mühitinin böyüməsi**

Daha böyük təşkilatlar daha çox kapitala və sonradan daha çox mümkün təsirə malik olsalar da, yaxınlıqdakı maliyyə inkişafı kiçik və orta ölçülü müəssisələr üçün güc sahələri yaratmaqla dəstəklənir. Bu, yaxınlıqdakı iqtisadiyyatı dəstəkləmək üçün ən çox cavabdeh olan iş növüdür, xüsusən də aşağı maaşlı ölkələrdə. Bu kənd təsərrüfatı ölkələrində KOS-ların əsas sayı yaranan irəliləyişlərə görə sıfıra endirilib,

məsələn, çox yönlü inkişaf iş yaratmada xüsusilə əhəmiyyətlidir, bununla belə, dünyanın qalan hissəsi ilə işləməyə hazır olan təsəvvürlü bir cəmiyyət yaradır.**Yeni kadrların yaranması**

Kiçik və orta ölçülü təşkilatların hər hansı bir geniş ictimaiyyətdəki işi, planet iqtisadiyyatındakı mövqeyindən asılı olmayaraq, qabaqcıl ruhun təkmilləşdirilməsinə əlavə olaraq əlavələr edir. Kiçik təşkilatlar tez-tez gənc və daha az təcrübəli nümayəndələrin öz peşələrində ən yaddaqalan addımlarını atdıqları yerlərdə olur. KOBİ-lərin inkişafının gücləndirilməsi iş adamlarını bütün öhdəliklərində oyatmağa imkan verir, çünki bu, onlara öz qabiliyyətlərini inkişaf etdirməyə və məqsədlərinə nail olmaqda üstünlük qazanmağa imkan verir. Aydın məsələdir ki, heç bir iş təcrübəsi olmayan potensial işçi qüvvələri karyeralarında ilk addımını hər zaman böyük korperasiyalarda ata bilmirlər. Böyük korperasiyaların onları görməsi, onları cəlb etməsi üçün həmin kadrların hazırlanmasında kiçik və orta sahibkarlıq subyektlərinin rolu danılmazdır.

**Aşağı risk və istehsal xərcləri**

İstehsal və maliyyə xərcləri daha böyük şirkətlərdə olduğu qədər yüksək olmasa da, KOS-lara böyük ticarət tərəfdaşlarına verilməyən bir sıra digər faydalar bəxş olunubdur. İstehsal xərcləri daha artıq olduğundan kiçik və orta biznes sahibləri davamlı olaraq yenilikçi xərc azaltma tədbirləri tapmağa çalışmalıdırlar. Kiçik və orta sahibkarlar risk və xərclər baxımından böyük korporasiyalara nəzərən daha çevik, daha dəyişkəndirlər. KOS-lar həm iqtisadiyyatdaki dəyişikliyə, həm ölkə qanunvericiliyindəki, həm də digər dəyişikliklərə böyük şirkətlərdən daha tez reaksiya göstərir və daha tez öyrəşir. Əlavə olaraq isə kiçik və orta bizneslərin bazara uyğunlaşması daha qısa vaxt alır və daha dinamik olur. Tez bir zamanda bazarda müəyyən paya sahib olaraq, öz hədəf kütləsini, öz alıcı seqmentini təsbit edərək həm risklərini, həm də xərclərini müəyyənləşdirir. Ümumi olaraq qeyd etsək bir KOS-un fəaliyyət göstərmə riskinin, istehsal xərclərinin aşağı olması, daha stabil yerli iş iqtisadiyyatının olmasına da kömək edir.

Günün sonunda güclü bir iqtisadiyyat bütün ölkələrin və insanların uğurları üçün vacibdir. Bu cür iqtisadi inkişafa töhfə verməyin yollarını daha yaxşı müəyyənləşdirsək, bir iqtisadiyyat xalqı üçün uğurlu yol xəritəsini daha yaxşı təsvir edə bilərik.

Kiçik və Orta Sahibkarlar (KOS-lar) əksər inkişaf edən ölkələrdə, xüsusən inkişaf etməkdə olan ölkələrdə mühüm rol oynayır. KOS-lar dünya miqyasında iş yerlərinin əksəriyyətini təşkil edir və iş yerlərinin açılmasına və qlobal iqtisadi inkişafa əhəmiyyətli dərəcədə kömək edirlər. Bunlar dünyadakı müəssisələrin təxminən 90%-ni və məşğulluğun 50%-dən çoxunu təmsil edir. Rəsmi kiçik və orta sahibkarlıq subyektləri inkişaf etməkdə olan ölkələrdə ümumi milli gəlirin (ÜDM) 40%-ə qədər hissəsini təmin edir. Bu rəqəmlərə qeyri-rəsmi KOS-lar daxil edildikdə alınan nəticə əhəmiyyətli dərəcədə yüksəkdir. Təxmini hesablamalara görə, artmaqda olan qlobal işçi qüvvəsini mənimsəmək üçün 2030-cu ilədək 600 milyon işə ehtiyac duyulacaq və bu da kiçik və orta bizneslərin inkişafını dünyanın bir çox hökuməti üçün yüksək prioritet halına gətirəcəkdir. İnkişaf etməkdə olan bazarlarda əksər rəsmi iş yerləri 10 iş yerindən 7-ni təşkil edən KOS-lar tərəfindən istehsal olunur. Bununla birlikdə, maliyyəyə çıxış KOS-ların böyüməsi üçün böyük bir maneədir və KOS-ların inkişaf etməkdə olan bazarlarda və inkişaf etməkdə olan ölkələrdə öz bizneslərini böyütməkdə qarşılaşdıqları ən çox ikinci əngəldir.

Kiçik və orta sahibkarların banklardan kredit almaq ehtimalı böyük şirkətlərə nisbətən daha azdır. Bunun əvəzinə, müəssisələrini açmaq və əvvəlcə fəaliyyət göstərmək üçün daxili fondlardan və ya dostlardan, ailədən gələn pul vəsaitlərindən istifadə edirlər. Beynəlxalq Maliyyə Korporasiyası (IFC), inkişaf etməkdə olan ölkələrdəki 65 milyon firmanın və ya rəsmi mikro, kiçik və orta müəssisələrin (KOB) 40%-nin hər il 5.2 trilyon dollar həcmində maliyyələşdirmə ehtiyacının olduğunu təxmin edir. bu, qlobal KOB kreditinin cari səviyyəsinin 1,4 qatına bərabərdir. Ümumi qlobal maliyyə kəsirinin ən böyük payını (46%) Şərqi Asiya və Sakit Okean, sonra Latın Amerikası və Karib dənizi (23%), daha sonra isə Avropa və Orta Asiya

(15%) izləyir. Boşluq həcmi bölgədən-bölgəyə xeyli dəyişir. Latın Amerikası və Karib adaları, Yaxın Şərq və Şimali Afrika bölgələri potensial tələblə müqayisədə ən yüksək maliyyə boşluğuna sahibdirlər. Rəsmi KOB-ların təxminən yarısı rəsmi kreditə çıxış edə bilmir. Mikro və qeyri-rəsmi müəssisələr nəzərə alındıqda, maliyyə açığı daha böyük olur.

Dünya Bankı Qrupunun işinin vacib sahəsi Kiçik və orta bizneslərin maliyyələşmə imkanlarını yaxşılaşdırmaq və kapital mənbələrini açmaq üçün yenilikçi həll yolları tapmaqdır.

Dünya Bankının yanaşması KOB-ların iqtisadiyyata verə biləcəyi töhfəni artırmaq üçün müştərilərə məsləhət vermək və borc verməklə birləşdirən vahiddir, əsasən, qadınlara məxsus kiçik və orta sahibkarlıqla bağlı seqmentlərin çatışmazlığını vurğulamaqdır.

Kiçik və orta sahibkarların maliyyələşdirilməsi üçün məsləhət və siyasət dəstəyinə əsasən Dünya Bankı diaqnoz, tətbiqetmə dəstəyi, qlobal vəkillik və yaxşı təcrübələrin məlumat mübadiləsini əhatə edir. Məsələn:

- Tənzimləmə və siyasət aspektlərində inkişaf sahələrini müəyyənləşdirmək üçün maliyyə sektoru qiymətləndirmələri KOS-ların maliyyəyə daha məsuliyyətlə yanaşmasına imkan verir;
- Müvafiq mühitin inkişafı, kredit zəmanəti proqramlarının dizaynı və qurulması kimi təşəbbüslərin həyata keçirilməsinə dəstək;
- Kiçik və orta bizneslərin maliyyəyə daha çox giriş imkanını təmin edə biləcək kredit infrastrukturunun (kredit hesabat sistemləri, girov əməliyyatları və girov qeydləri və iflas rejimləri) təkmilləşdirilməsi;
- Elektron kredit platformaları, kredit qərarları üçün alternativ məlumatların istifadəsi, e-faktura, e-faktorinq və təchizat zənciri maliyyələşdirilməsi kimi KOS maliyyəsində yenilik;

- Kiçik və orta sahibkarlıq maliyyə fəaliyyətini dəstəkləmək üçün siyasət işi, analitik iş və digər konsaltinq xidmətləri də təmin edilə bilər;
- G20 Qlobal Maliyyə İnkişafı Tərəfdaşlığına, Maliyyə Sabitliyi Şurasına, KOS Maliyyəsi ilə əlaqəli Beynəlxalq Kredit Komitəsinə kredit hesabatına qoşulmaq və dəstəkləməklə KOB-ların qlobal səviyyədə dəstəklənməsi;
- Yaxşı təcrübə, uğurlu modellər və siyasət çərçivələri haqqında məlumat idarəetmə vasitələri və əsas nəşrlər;

**Kredit əməliyyatları:**

- KOS kredit xətləri, kiçik və orta biznesləri investisiya, böyümə, ixrac və şaxələndirmə, dəstəkləmək üçün özəl bank maliyyələşdirməsini təmin edir - bu, ümumiyyətlə bazarda mövcud olduğundan daha uzun müddətdir;
- Qismən Kredit Zəmanət Planları (PCGS) - PCG-lərin dizaynı KOB-ların uğuru üçün çox vacibdir və bu cür obyektlərin dizaynı və istifadəyə verilməsi üçün dəstək verilə bilər;
- Erkən Mərhələ İnnovasiya Maliyyəsi başqa bir şəkildə bank maliyyəsinə çıxışı olmaya biləcək startuplara və ya yüksək inkişaf edən firmalara kapital və borc / yarı borc təmin edir;

Son dünya əmtəə bazarındakı dalğalanma dövlət maliyyəsində bəzi maliyyə riskləri və Azərbaycan iqtisadiyyatına arzuolunmaz təsirlər yaratdı. Belə ki, 2014-cü ildən bəri neft qiymətlərindəki ciddi azalma əsas makroiqtisadi dəyişənlərə ciddi təsir göstərərək 2015-ci ilin fevral və dekabr aylarında yerli valyutanın dəyərdən düşməsinə səbəb oldu. Nəticədə 1995-ci ildən bəri ilk dəfə ÜDM artımı mənfi -3,1% olaraq müşahidə olundu. Neftdən asılılığı azaltmaq üçün qeyri-neft sektorunun inkişafı, büdcə gəlirlərinin şaxələndirilməsi və vergi bazasının genişləndirilməsi cari hökumətin prioritetlərindəndir. Bu çərçivədə KOB-ların təkmilləşdirilməsi davamlı iqtisadi inkişafın təmin edilməsi və bir çox mənbədən büdcə gəlirlərinin təmin edilməsi baxımından həyati bir vəzifədir. Kiçik və orta sahibkarlar iqtisadiyyatın

müxtəlif sahələrinə və alt sektorlarına dəyər qataraq büdcə gəlirləri üçün vergi bazasının genişlənməsinə səbəb olur. İqtisadiyyatın müxtəlif sahələrindən və alt sektorlarından vergi gəlirləri gəlir müxtəlifliyini və büdcə sabitliyini təşviq edir. KOB-ların iqtisadi artım, məşğulluq və yenilik mənbəyi olduğu geniş qəbul edilmişdir. Yeni sənayeləşmiş və inkişaf etmiş ölkələrdə KOB-lar bütün sahibkarlığın 99%-ni təşkil edir, 60% məşğulluq yaradır və ÜDM-in təxminən 50-60%-ə əlavə dəyər verir. KOB-lar inkişaf etməkdə olan ölkələrdə məşğulluğun 45%-ni və ÜDM-in 33%-ni təşkil edir. Qlobal bir araşdırmaya görə, adambaşına düşən Ümumi Daxili Məhsulun yüksək olduğu ölkələrdə KOB-lar ən yüksək məşğulluq və ÜDM payına sahibdirlər. Dövlət Statistika Komitəsinə (DSK) görə KOB-ların istehsal və məşğulluqdakı payı 6% və Azərbaycan iqtisadiyyatındakı payı isə 21%-dir.

Qlobal dəyər zəncirinin inkişafı və bütün iş sahələri üçün rəqəmsal texnologiyanın tətbiqi KOB-ların beynəlxalq ticarətin bir hissəsi olması üçün yeni imkanlar yaradır. Dəyişən bazar şərtləri və müştəri ehtiyacları üçün əmtəə istehsal edən KOB-ların çevikliyi nəticəsində geniş miqyaslı müəssisələrə nisbətən müqayisəli üstünlüklər verir. KOB-lar qlobal dəyər zəncirini hazır məhsullar əvəzinə ara məhsullar istehsal edərək birləşdirə bilər. Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına üzv ölkələrdə KOB-ların ixracatında orta mallara sahib olan iri müəssisələrə nisbətən daha yüksəkdir. Digər üzv dövlətlərlə müqayisədə, aralıq mallar Taylandın ixracatında daha yüksək paya malikdir. Beləliklə, bu ölkədəki KOB-lar və iri müəssisələr müvafiq olaraq ara malların ixracatına 16% və 6% dəyər qatırlar. KOB-lar iş modelləri, əməliyyat profilləri və təşəbbüskarlıq istəkləri baxımından şaxələndirilir. Müxtəlif parametrlər üzrə KOB-ların müxtəlifliyi, fərqli perspektivlər və yenilikçi yanaşmalar bazarda davamlı iqtisadi inkişafa gətirib çıxaran ədalətli rəqabəti təşviq edir. Bundan əlavə, özəl sektorda KOBİ-lərin payının artırılması hökumətin iqtisadiyyata təsirini azalda bilər. Daha doğrusu, KOB-ların genişlənməsi məşğulluğu dövlətdən özəl sektora keçirə bilər. Nəticədə büdcədən maliyyələşmə və dövlət yükü azaldıla bilər. 2005-ci ildən bəri Azərbaycan

iqtisadiyyatı artan neft gəlirləri hesabına genişlənmişdir. Bu müddətdən sonra dövlət vergi gəlirləri ilə dövlət xərcləri arasındakı fərq əvvəlki illərə nisbətən xeyli artdı. Nəticədə, kəsir Dövlət Neft Fonduna köçürmələrlə bağlandı.

# II FƏSİL. KİÇİK VƏ ORTA SAHİBKARLARIN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ

## 2.1. KOBİA –nın fəaliyyətinin qiymətləndirilməsi

Bildiyiniz kimi, dövlət iqtisadiyyata təsir edən böyük amillərdən biridir. Dövlət üçün əhəmiyyətli məsələ xalqın rifahının yüksəldilməsi və iqtisadiyyatın intensiv olaraq inkişaf etməsidir. Təbii ki, qeyd olunanlar bilavasitə dövlətin dəstəyi və müsbət təsirlərindən yaranır. Ölkədə biznes mühitinin yaradılması, sahibkarlara dəstək və qayğının göstərilməsi dövlət siyasətinin prioritet mövzularındandır. Bu qayğı dövlət tərəfindən sahibkarlara maddi və mənəvi olaraq göstərilmişdir və göstərilməkdədir. İstər dünya iqtisadiyyatında, istərsə də Azərbaycan iqtisadiyyatında baş verən müsbət və mənfi proseslər zamanı dövlət sahibkarlara olan diqqətini hər zaman göstərməyə çalışmalıdır. Müstəqillik əldə olunduqdan sonra bazar iqtisadiyyatında köklü dəyişikliklər olmuşdur və dövlət sağlam bazar mühiti yaratmağa çalışmışdır. Lakin, dövlət iqtisadiyyata təsir edən tək amil deyildir, buna görə də cari dövrdə də həm struktur baxımından, həm hüquqi baxımdan boşluqlar mövcuddur. Bu boşluqlar dünya iqtisadiyyatında baş vermiş mənfi proseslər zamanı həm dövlət büdcəsinə, həm də yerli bazara öz təsir gücünü göstərmişdir. Bu səbəblərdən dolayı dövlət kiçik və

orta sahibkarlara qayğı və diqqət göstərməklə yanaşı, onlara hüquq çərçivəsində müəyyən məhdudiyyətlər qoymuş və nəzarətini gücləndirmişdir. Həm dəstəyin göstərilməsi, həm də nəzarətin strukturlaşdırılması üçün yeni dövlət orqanları və hüquqi şəxslər təsis edilmişdir. Bunlardan biri də Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)-dır.

KOBİA-nın sahibkarlıq subyektlərinə dəstək verən mühüm mexanizmlərdən biri ondan ibarətdir ki, KOM EVİ sürətli, şəffaflıq, rahatlıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan ərazidə sahibkarlıq subyektlərinə bütün dövlət və korporativ biznes xidmətlərini göstərməlidir. 30-dan çox dövlət qurumundan 100-dən çox G2B (dövlət-biznes) xidmətləri və özəl təşkilatlardan B2B (biznesdən biznesə) xidmətləri biznesin planlaşdırılmasından tutmuş sürətli inkişafa, kiçik və orta sahibkarlığa qədər bütün formalarda təşkil olunur.

Sahibkarlar üçün ən vacib məsələlər vergi xərcləri və dövlət vergiləridir. KOBİA kiçik və orta şirkətlər üçün Vergi Məcəlləsində bəzi güzəştlər təklif edir. Vergi Məcəlləsinə əsasən, mikro sahibkarın gəlir və gəlirlərinin bir hissəsi vergidən azad edilir. Bu kateqoriyaya aid olan şirkətlər də əmlak vergisindən azaddırlar. Mikro və kiçik şirkətlərə yönəlmiş startaplar - Startap Sertifikatının alındığı tarixdən 3 ilədək müddətə mənfəət vergisi və gəlir vergisindən azadolma (https://smb.gov.az/az/nav/startap-sehadetnamesi, 2021). Eyni zamanda, təsərrüfat subyekti illik baza amortizasiyasını 1,5 faktor artıraraq əsas vəsaitlərin sürətli köhnəlməsini tətbiq edə bilər. Vergi Məcəlləsinə əsasən, KOM klasterlərində fəaliyyət göstərən KOM klaster şirkətləri 7 il müddətinə gəlir, torpaq və əmlak vergiləri, habelə idxal olunan avadanlıqlar üzrə ƏDV-dən azaddırlar. Onu da qeyd etmək lazımdır ki, KOBİA startap sertifikatı vermək səlahiyyətinə malikdir.

KOBİA kiçik və orta biznesin inkişafına dəstək üçün bir sıra layihələr həyata keçirib və hazırda həyata keçirir. Bu layihələrdən biri də KOBİlərə Dost Layihəsidir.

Agentlik qarşıya qoyduğu məqsəd və vəzifələrə nail olmaq üçün yeni idarəetmə modellərini təqdim edir. Hazırda ölkə üzrə tam inkişaf mərhələsində olan Kiçik və Orta Biznes Şəbəkəsi Agentliyin ən mühüm strateji məqsədlərindən biridir və bu şəbəkə vasitəsilə Agentliyin layihələri ölkənin digər regionlarında da həyata keçirilir.

KOB dostlarının fəaliyyət istiqaməti yeni kiçik və orta biznes subyektlərinin yaranması, mövcud olan KOB-ların inkişaf etdirilməsi ilə regionun inkişaf perspektivlərinin həyata keçirilməsinə yönəldilmişdir. Bu məqsədlə potensial yatırım layihələri müəyyənləşdirilir və onların KOB-lar tərəfindən reallaşdırılmasına təşəbbüs göstərilir.

KOB dostlarının fəaliyyətinin digər əhəmiyyətli hissəsi kiçik və orta sahibkarların hüquq və maraqlarının müdafiəsi istiqamətində yönəlmişdir. KOB-ların hüquq və maraqlarının müdafiəsi, yarana biləcək problem və çətinliklərin həlli yolunun dövlət-sahibkar əməkdaşlıq platformasında yerində çevik həlli nəzərdə tutulur.

KOB dostlarının fəaliyyətinin daha bir önəmli istiqaməti sorğu və monitorinqlərin həyata keçirilməsidir. Sahibkarlarla sıx əlaqədə olan KOB dostları onların inkişaf ehtiyaclarını sorğulayır, digər vasitələrlə öyrənir və həll edilməsi üçün təkliflər irəli sürərək reallaşdırmağa çalışır.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sahibkarların biznes fəaliyyətlərini maliyyələşdirmək məqsədilə investorları, fondları, maliyyə institutlarını cəlb edir və onların vasitəsilə iqtisadiyyatın inkişafına zəmin yaradır. KOBİA təsis edildiyi gündən etibarən bir çox layihələrin, startapların reallaşdırılmasında öz töhfəsini vermişdir. İstər yeni ideyalar, istərsə də davam etməkdə olan sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində Agentlik öz səylərini göstərmiş və son 3 ildə müsbət nəticələr əldə olunmuşdur.

Bildiyiniz kimi, 2020-ci ildə dünyada yayılmış Covid-19 pandemiyasının mənfi təsiri Azərbaycan iqtisadiyyatından da yan keçmədi. Bir çox biznes sahəsi iflas etdi, bir çox sahibkarlıq sahəsində isə geriləmə müşahidə olundu. Təbii ki, bu mənfi yan

təsirlərə KOBİA səssiz qala bilməzdi və qalmadı. Agentlik sağlam biznes sahələrinin dayanıqlı inkişafının təmin edilməsi məqsədilə bir çox təkliflər irəli sürdü, layihələr reallaşdırdı və yumşalmalar həyata keçirdi. Bu yumşalmalara bəzi vergilərdən azadolma, banklarda olan kreditlərin faizlərində güzəştlərin edilməsi, maliyyə fondları tərəfindən güzəştli biznes kreditlərinin təşviq edilməsi, böhran vəziyyətində təsirlərdən düzgün istifadə edərək biznesin ən azından stabil davam etməsi üçün sahibkarlara təlimlərin keçirilməsi və s. aid ola bilər.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin səyləri, sahibkarlıq fəaliyyətinə olan dəstək diqqət və qayğısı sahibkarlar tərəfindən də yüksək qiymətləndirilir. Əlbəttə ki, sahibkarlar da dövlətin və Agentliyin diqqətini hiss edir, bu səbəbdən onların qarşılarına qoyulan hədəflərə məsuliyyətlə yanaşırlar. KOBİA yaradıldığı gündən etibarən bir çox sahibkarlar dövlətlə olan dostluğunu daha da möhkəmləndirmişdir və Azərbaycan iqtisadiyyatının inkişafında pay sahibi olmuşdur.

Yuxarıda qeyd olunanlar KOBİA-nın Azərbaycan iqtisadiyyatına müsbət təsirlərinin bariz nümunələridir. Göstərilən səylər davam etməkdədir və müsbət nəticələr əldə olunmaqdadır.

Statistik məlumatlara nəzər salsaq büdcə xərcləri ilə dövlətin vergi gəlirləri arasında 2005-ci ilə qədər gözə çarpacaq qədər böyük bir fərq yoxdur. Daha dəqiq desək, 1995-2004-cü illər ərzində 10 illik büdcə xərclərini və vergi gəlirlərini əhatə edən qrafik müvafiq olaraq 7.9 milyard manat və 6.3 milyard manatdan ibarət idi. Nəticədə 1,6 milyard manat kəsir meydana gəldi. Azərbaycan iqtisadiyyatı 2005-ci ildən etibarən maliyyə genişlənməsini yaşayır və büdcə xərcləri o zamandan bəri vergi gəlirlərini xeyli üstələyib. Bu səbəbdən bu iki göstərici arasında boşluq yaradıldı və bu boşluq Dövlət Neft Fondundan transfertlər ilə aradan qaldırıldı. 2005-2019-cu illər dövründə dövlət xərcləri və vergi gəlirləri 216,8 milyard manat və buna görə 105,4 milyard manat təşkil etmişdir. Görünən odur ki, 96% -i Dövlət Neft Fondu

tərəfindən ödənilən 111,4 milyard manat kəsiri var. Bu dövrdə vergi gəlirləri 6 dəfə və büdcə xərcləri 12 dəfə artmışdır.

Vergi gəlirləri ilə büdcə xərcləri arasındakı boşluğu nəzərə alaraq, KOB-ların inkişafı iqtisadiyyatın müxtəlif sahələrində ədalətli rəqabəti stimullaşdırmaq və vergi gəlirlərinin genişlənməsinə gətirib çıxara bilər ki, bu da bu uçurumun azalmasına kömək edə bilər. DSK vergi gəlirlərini vergi növləri üzrə dərc etsə də, KOB-ların bu cür vergi gəlirlərinə verdiyi töhfə tənzimlənmir. Azərbaycan iqtisadiyyatında KOB-ların məşğulluq və ÜDM-də payının az olduğunu nəzərə alsaq, KOS-ların vergi gəlirlərinə təsirinin də əhəmiyyətsiz olduğunu düşünə bilərik. Əlavə olaraq cədvəl 2-də müstəqillik qazanıldıqdan sonra ÜDM-nin və illik adambaşına düşən gəlirin statistikasını görə bilərik. Yeni müştəqillik qazanılmış ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin intensiv olaraq inkişaf etməsi qeyri-mümkündür, lakin zaman keçdikcə yeni bizneslərin yaranması nəticəyə də öz təsirini göstərmişdir.

**Cədvəl 2: Ümumi Daxili Məhsul (illər üzrə)**

| **İllər** | **Manat (mln.)** | **Dollar (mln.)** | **Adambaşına düşən gəlir** | |
|---|---|---|---|---|
| | | | **Manat** | **dollar** |
| **1995** | 2 133,8 | 2 415.2 | 282.1 | 319.3 |
| **1996** | 2 732.6 | 3 180.8 | 357.5 | 416.1 |
| **1997** | 3 158.3 | 3 960.7 | 409.2 | 513.2 |
| **1998** | 3 440.6 | 4 446.4 | 441.5 | 570.6 |
| **1999** | 3 775.1 | 4 583.7 | 480.1 | 582.9 |
| **2000** | 4 718.1 | 5 272.8 | 595.1 | 665.1 |
| **2001** | 5 315.6 | 5 707.7 | 665.2 | 714.3 |
| **2002** | 6 062.5 | 6 235.9 | 752.9 | 774.4 |
| **2003** | 7 146.5 | 7 276.0 | 880.8 | 896.8 |
| **2004** | 8 530.2 | 8 680.4 | 1 042.0 | 1 060.3 |
| **2005** | 12 522.5 | 13 238.7 | 1 513.9 | 1 600.4 |
| **2006** | 18 746.2 | 20 983.0 | 2 241.1 | 2 508.5 |
| **2007** | 28 360.5 | 33 050.03 | 3 351.8 | 3 906.1 |
| **2008** | 38 005.7 | 46 258.2 | 4 439.9 | 5 403.9 |
| **2009** | 34 060.8 | 42 575.7 | 3 917.3 | 4 874.1 |
| **2010** | 42 465.0 | 52 909.3 | 4 753.0 | 5 922.0 |
| **2011** | 52 082.0 | 65 951.6 | 5 752.9 | 7 285.0 |
| **2012** | 54 743.7 | 69 683.9 | 5 966.1 | 7 594.3 |
| **2013** | 58 182.0 | 74 164.4 | 6 258.3 | 7 977.4 |
| **2014** | 58 977.8 | 75 188.4 | 6 264.1 | 7 985.9 |
| **2015** | 54 352.1 | 51 471.7 | 5 661.2 | 5 361.2 |

**Mənbə:** Statistik məlumatlara əsasən müəllif tərəfindən tərtib edilmişdir
Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az)

Sahibkarlıq fəaliyyəti bu gün iqtisadiyyatın gəldiyi nöqtədə vacib bir mövqeyə malikdir. Dünyada bir çox ölkələrdə müşahidə olunan "Resurs Sindromu" Azərbaycanda da hiss olunur. Təbii ki, bu hal dövlətin, ölkə iqtisadiyyatının bir resursdan asılılığını əks etdirir və riskin əsasən bir sektorda cəmləşməsini təzahür etdirir. Bu vəziyyət olduğu müddətcə dövlət bu hala biganə qala bilməz, ölkə iqtisadiyyatının intensiv inkişafını təmin etmək üçün, əhalinin ehtiyaclarını təmin etmək və sosial rifahın yüksəlməsini nəzərə alaraq bu asılılıqdan azad olmaq və digər sahələrin inkişafını təmin etmək dövlət qarşısında olan önəmli öhdəliklərdən biridir. Asılılıqdan çıxış yolu isə iqtisadiyyatın digər sahələrini inkişaf etdirməkdir ki, bu da kiçik və orta sahibkarlıq fəaliyyətinin olmasını məcbur qılır (Klaus North, 2016). Qrafik 2-də əks olunan bölgü Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığını əks etdirir.

**Qrafik 1: Neft və qeyri-neft sektorunun Azərbaycan iqtisadiyyatındakı payı**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi; ARDNF illik hesabatı və 2018-ci ilin yanvar-dekabr ayları üçün ARDNF-in gəlir və xərcləri haqqında hesabat https://www.stat.gov.az/menu/2/reports/az/hesabat_2018.pdf, 2018

Əsasən, inkişaf etməkdə olan ölkələrdə olduğu kimi Azərbaycanda da kiçik və orta biznesin inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabət qabiliyyətinin

artırılması, məşğulluğun təmin edilməsi, əhali üçün istehlak məhsullarının hazırlanması və onların yerli resurslar hesabına ödənilməsi dövlət üçün qarşıda duran əsas hədəflərdən biridir. Dövlətin son illərdə qeyri-neft sektorunun inkişafına göstərdiyi təşəbbüs sahibkarların biznes fəaliyyətinə olan marağının artmasına zəmin yaratmışdır.

**Cədvəl 3: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı (2018-ci il üzrə)**

| Göstəricilər | 2018 | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən | |
| | | Hüquqi şəxslər | Fərdi sahibkarlar |
| **Sahibkarlıq subyektlərinin ümumi sayı** | **244884** | **26388** | **218495** |
| Mikro sahibkarlıq subyektlərinin sayı | 237915 | 19421 | 217494 |
| Kiçik sahibkarlıq subyektlərinin sayı | 4930 | 4930 | - |
| Orta sahibkarlıq subyektlərinin sayı | 2138 | 2138 | - |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/entrepreneurship/, 2018)

Cədvəl 3 və cədvəl 4-də 2018 və 2019-cu il üzrə sahibkarlıq subyektlərinin ümumi sayı və meyarlara görə statistikası əks olunmuşdur. Sahibkarlıq subyektlərinin sayında 1 il ərzində təxminən 11% artım müşahidə edilmişdir ki, bu da dövlət təşəbbüsünün müsbət nəticəsidir.

**Cədvəl 4: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı (2019-cu il üzrə)**

| Göstəricilər | 2019 | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən | |
| | | Hüquqi şəxslər | Fərdi sahibkarlar |
| **Sahibkarlıq subyektlərinin ümumi sayı** | **282406** | **32286** | **251508** |
| Mikro sahibkarlıq subyektlərinin sayı | 273723 | 23677 | 277708 |
| Kiçik sahibkarlıq subyektlərinin sayı | 5944 | 5845 | - |
| Orta sahibkarlıq subyektlərinin sayı | 2836 | 2837 | - |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/entrepreneurship/, 2019)

Son illərdə sahibkarlıq fəaliyyətinin yüksək qiymətləndirilməsi, onların inkişafını təmin etmək üçün dövlət tərəfindən yeni layihələrin yaradılması, bankların və maliyyə institutlarının sahibkarların sayının artması və fəaliyyətlərinin genişlənməsi üçün güzəştlərin və daha sərfəli təkliflərin etməsi dövlətin ÜDM-də qeyri-neft sektorunun payının artmasına səbəb olmuşdur. Əsasən, kənd təsərrüfatı, turizm, tikinti, yüngül sənaye və digər sahələrin ÜDM-də olan payının artması resurs sindromundan qismən azad olmağı göstərən bariz nümunələrdən biridir. Cədvəl 5-də 2010-2018-ci illər üzrə ÜDM, neft və qeyri-neft sektorundan daxil olan gəlirlər əks olunmuşdur. Zaman keçdikcə qeyri-neft sektorundan daxil olan gəlirlər artsa da, bu hal ölkə iqtisadiyyatının Resurs Sindromundan azad olması anlamına gəlmir. Gəlirlərin bu tendensiya ilə davam etməsi kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatındakı rolunu təzahür etdirir.

**Cədvəl 5: ÜDM, neft və qeyri-neft sektorundan daxil olan gəlirlər**

| **İllər** | **Cəmi ÜDM (mln. manatla)** | **Qeyri-neft (mln. manatla)** | **Neft (mln. manatla)** |
|---|---|---|---|
| **2010** | 42465,0 | 19179,0 | 20409,05 |
| **2011** | 52082,0 | 23196,1 | 25829,9 |
| **2012** | 54743,7 | 26864,4 | 24487,3 |
| **2013** | 58182,0 | 30525,9 | 23778,1 |
| **2014** | 59014,1 | 33195,9 | 21405,2 |
| **2015** | 54380,0 | 34138,8 | 15382,2 |
| **2016** | 60425,2 | 35951,1 | 19552,6 |
| **2017** | 70337,8 | 40328,0 | 25005,04 |
| **2018** | 80092,0 | 41662,0 | 32231,7 |
| **2019** | 81896,2 | 44481,8 | 30051,9 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/system_nat_accounts/az/007_1.xls, 2020)

Kiçik və orta biznesin rəqabəti müdafiə etməsi iqtisadiyyatda ən böyük rollarından biri hesab olunur. Ölkədə rəqabət mühitini möhkəmləndirmək üçün bu sahənin inkişaf etdirilməsi çox önəmlidir. Ölkədə yeni iş yerlərinin formalaşmasına

şərait yaratması bu sahənin iqtisadiyyata ən böyük töhfələrindəndir. Kiçik və orta sahibkarlar az investisiya edərək daha çox və müxtəlif məhsul istehsal edə bilirlər. Həmçinin, iş imkanlarını yaratmaq üçün az investisiya xərcləri çəkmək mümkündür. Tələbatdakı dəyişikliklərə və müxtəlifliklərə daha rahat uyğunlaşa bilirlər.

Kiçik və orta sahibkarlıq ölkədə yeni iş yerlərinin yaradılmasında əvəzsiz rol oynayır. Bu sektor həm də Dövlətlər üçün böhrandan qaçmağın əsas yollarından biridir. Çünki böhran zamanı iri korporativ şirkətlərin iflasa uğraması ölkə iqtisadiyyatında iqtisadi böhranın səviyyəsini yüksəldir. Lakin kiçik və orta şirkətlərdə belə risklər daha azdır. Kiçik və orta sahibkarlıq böhran dövründə sosial-iqtisadi sabitliyi təmin edə və mövcud vəziyyətə daha tez reaksiya verə bilər. Bu şirkətlərin bolluğu iqtisadiyyatda tarazlıq yaradır.

Mikro, kiçik və orta sahibkarlıq subyektləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli №-li qərarı ilə təsdiq edilmiş mikro, kiçik, orta və iri sahibkarlıq meyarları əsasında müəyyən edilib. 556. Mikro sahibkarlar üçün işçilərin orta siyahısı 10 nəfərə qədər, illik gəliri 200 min manatadək, kiçik sahibkarlar üçün işçilərin orta sayı 11 nəfərdən 50 nəfərə qədər, işçilərin orta illik sayı 200 min nəfərdən 3000 nəfərə qədərdir.

**Cədvəl 6: Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri**

| **Göstəricilər** | **2021** | | | |
|---|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən** | | |
| | | **Mikro** | **Kiçik** | **Orta** |
| Yaradılmış əlavə dəyər, milyon manat | 10,941.0 | 4,455.2 | 1,617.9 | 4,867.9 |
| İşçilərin sayı, min nəfər | 348.7 | 40.9 | 92.1 | 215.7 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 612.3 | 359.4 | 533.8 | 714.4 |
| Əsas kapitala investisiyalar, milyon manat | 2,674.1 | 970.2 | 380.4 | 1,323.5 |
| Məhsul buraxlışı, milyon manat | 316,370.0 | 307,717.0 | 5,943.0 | 2,710.0 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/, 01.01.2022

Cədvəl 6-da Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri və dinamikası əks olunmuşdur ki, bu makroiqtisadi

göstəricilərə yaradılmış əlavə dəyər, işçilərin sayı, orta aylıq nominal əməkhaqqı, əsas kapitala investisiyalar, məhsul buraxlışı aiddir (Davenport T. H., Harris, J. G., Cantrell S. 2004).

Makroiqtisadi göstəricilər treyderlər üçün fundamental təhlilin mühüm hissəsidir, çünki onlar ölkə iqtisadiyyatının vəziyyəti haqqında məlumat verir. Makroiqtisadi göstəricilər konkret ölkənin, regionun və ya sektorun iqtisadi şəraitini əks etdirən statistik məlumatlar və ya məlumat oxunuşlarıdır. Onlar analitiklər və hökumətlər tərəfindən iqtisadiyyatın və maliyyə bazarlarının cari və gələcək sağlamlığını qiymətləndirmək üçün istifadə olunur.

Makroiqtisadi göstəricilər öz mənasına və iqtisadiyyata təsirinə görə fərqlənəcək, lakin ümumilikdə götürdükdə göstəricilərin iki əsas növü vardır.

İqtisadiyyatın hara gedəcəyini proqnozlaşdıran aparıcı göstəricilər. Onlar tez-tez hökumətlər tərəfindən siyasətləri həyata keçirmək üçün istifadə olunur, çünki onlar yeni iqtisadi dövrün birinci mərhələsini təmsil edirlər. Bunlara gəlir əyrisi, faiz dərəcələri və səhm qiymətləri daxildir.

İqtisadiyyatın tarixi göstəricilərini əks etdirən və yalnız trend müəyyən edildikdən sonra dəyişən geridə qalan göstəricilər. Onlar tendensiyanın davam etdiyini təsdiqləmək üçün istifadə olunur. Bunlara ümumi daxili məhsul (ÜDM), inflyasiya və məşğulluq rəqəmləri daxildir.

Üst-üstə düşən göstəricilər kateqoriyası da var, lakin onlar eyni zamanda və ya iqtisadi dəyişiklikdən sonra baş verdiyi üçün çox vaxt geridə qalan göstəricilərlə qruplaşdırılır.

Makroiqtisadi göstəricilər hər bir treyder üçün vacibdir, çünki onlar bazarın hərəkətinə əhəmiyyətli təsir göstərə bilər. Bu səbəbdən fundamental təhlillərin əksəriyyətində makroiqtisadi göstəricilər yer alacaq.

Yalnız bu göstəricilərin etibarlı olduğuna əmin olmaq üçün heç bir yol yoxdur, lakin onların iqtisadiyyatın formalaşmasında rolu var. Bu göstəricilər yalnız digər

treyderlərə mövqelərin açılmasına və bağlanmasına təsir etsə belə, bu, bazarda volatillik yaratmaq üçün kifayət edə bilər.

Bazar iştirakçıları məlumat dərc edilməzdən əvvəl analitiklərin proqnozlarına diqqət yetirəcəklər. Analitiklərin təxminləri ilə faktiki rəqəm arasındakı fərq nə qədər böyükdürsə, mövqelər faktiki rəqəmi əks etdirmək üçün düzəldildiyi üçün maliyyə bazarlarında bir o qədər dəyişkənlik gözləmək olar. Cədvəl 7-də ölkəmizdə mikro, kiçik və orta sahibkarlığın faiz nisbəti göstərilir. Statistika Komitəsinin 2022-ci il üzrə təqdim etdiyi rəqəmlərə uyğun olaraq, 2022-ci ilin yanvar ayına bu sektorda fəaliyyət göstərən sənaye şirkətləri və fərdi sahibkarlar 2021-ci ilin uyğun ayı ilə müqayisədə 6,4 milyard manat və ya 5,3% təşkil edib. Neft-qaz sahəsində məhsul istehsalı 1,3 faiz, neft-qaz sektorunda isə 25,2 faiz çoxalıb. (Choe J., 2003: p.224).

**Cədvəl 7: Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı, faizlə**

| **Göstəricilər** | **2021** | | | |
|---|---|---|---|---|
| | **Cəmi (%)** | **o cümlədən** | | |
| | | **Mikro (%)** | **Kiçik (%)** | **Orta (%)** |
| Əlavə dəyər | 16.7 | 6.8 | 2.5 | 7.4 |
| qeyri neft-qaz sektoru üzrə* | 23.7 | 9.9 | 3.5 | 10.3 |
| İşçilərin sayı | 42.1 | 4.9 | 11.1 | 26.1 |
| qeyri neft-qaz sektoru üzrə | 43.8 | 6.1 | 12.9 | 24.8 |
| Əsas kapitala investisiyalar | 23.2 | 8.4 | 3.3 | 11.5 |
| qeyri neft-qaz sektoru üzrə | 11.5 | 3.4 | 7.7 | 0.4 |
| Məhsul buraxlışında payı | 99.7 | 96.9 | 1.9 | 0.9 |
| qeyri neft-qaz sektoru üzrə | 16.7 | 6.8 | 2.5 | 7.4 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/, 01.01.2022

Müasir nəticənin 72,2 faizi mədən sahəsi, 23,0 faizi emal bölməsi, 4,3 faizi enerji, qaz və buxarın yaradılması, yayılması və təchizatı, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi sahəsində verilmişdir.

Mədənçıxarma sahəsində biznes neftinin yaradılması 6,1 faiz azalıb, biznes qazının yaradılması isə 18,3 faiz genişlənib.

Təchizat sahəsində nəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların inkişafı 3,0 dəfə, müxtəlif nəqliyyat vasitələrinin yaradılması 2,4 dəfə, sonsuz inək dərisi, ayaqqabı istehsalı 2,1 dəfə, elektrik avadanlıqlarının yaradılması 93,3 faiz, mebel istehsalı 85,7 dəfə. faiz, materialların yaradılması 85,1 faiz, aparat və mexanizmlərin yaradılması 69,8 faiz, dərman vasitələrinin 63,2 faizi, maddə məmulatlarının 61,6 faizi, hazır metal məmulatların 59,0 faizi, fərdi kompüter, elektron və optik məmulatların yaradılması 50, 9 faiz, çap məmulatlarının yaradılması 45,4 faiz, metallurgiya məmulatları 40,8 faiz, neft məmulatlarının yaradılması 28,3 faiz, kağız və karton istehsalı 27,6 faiz, ərzaq məhsullarının yaradılması 19,1 faiz, elastik və plastik məmulatların yaradılması 18,6 faiz, avadanlığın yaradılması və bərkidilməsi 4,7 faiz, geyim istehsalı genişlənib. 6,4 faiz, içkilər 12,8 faiz, material sənayesi tütün məmulatlarının istehsalı 13,9 faiz, ağac emalı və ağac məmulatlarının istehsalı 32,2 faiz azalıb.

Elektrik enerjisinin, qazın və buxarın yaradılması, nəqli və təchizatı sahəsində yaradılmasının həcmi 6,0 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində isə 5,1 faiz artıb.

AR-da hazırda dinamik olan mikro, kiçik və orta səviyyəli işlərin sayı aşağıdakı cədvəldə göstərilir.

**Cədvəl 8: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| **Göstəricilər** | **2020** | | |
|---|---|---|---|
| | **Cəmi** | o cümlədən | |
| | | **Hüquqi şəxslər** | **Fərdi sahibkarlar** |
| Sahibkarlıq subyektlərinin ümumi sayı | 316370 | 33450 | 282920 |
| Mikro sahibkarlıq subyektlərinin sayı | 307717 | 24797 | 282920 |
| Kiçik sahibkarlıq subyekti olan müəssisələrin sayı | 5943 | 5943 | - |
| Orta sahibkarlıq subyekti olan müəssisələrin sayı | 2710 | 2710 | - |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/, 01.01.2022

Statistika komitəsindən əldə edilən məlumatlara əsasən Azərbaycanda hal-hazda 316 mindən artıq sahibkarlıq subyekti fəaliyyət göstərir. Sahibkarlıq subyektləri içərisində ən yüksək pay mikro subyektlərin payına düşür (307 mindən artıq). Aktiv fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin cəmi sayə təxminən 6 min, orta sahibkarlıq subyektlərinin təxmini sayı isə 2700 ədəddir.

Cədvəl 9-də fəaliyyətdə olan kiçik, mikro və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü göstərilmişdir.

Statistika komitəsindən əldə olunan məlumatlara (cədvəl 9) əsasən, ölkə üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin üstünlük təşkil etdiyi iqtisadi rayon Abşeron-Xızı iqtisadi rayonudur. Növbəti pillədə Lənkəran-Astara iqtisadi rayonu, daha sonra isə Şəki-Zaqatala iqtisadi rayonu və Gəncə-Daşkəsən iqtisadi rayonu qərarlaşır.

**Cədvəl 9: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü**

| | **2020** | | | |
|---|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən** | | |
| | | **Mikro** | **Kiçik** | **Orta** |
| **Ölkə üzrə, cəmi** | **316370** | **307717** | **5943** | **2710** |
| Naxçıvan Muxtar Respublikası, cəmi | 8615.0 | 8330 | 167 | 118 |
| Abşeron-Xızı iqtisadi rayonu, cəmi | 28521.0 | 27944 | 394 | 183 |
| Dağlıq Şirvan iqtisadi rayonu, cəmi | 6956.0 | 6855 | 65 | 36 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu, cəmi | 15044 | 14822 | 130 | 92 |
| Qarabağ iqtisadi rayonu, cəmi | 12857 | 12692 | 114 | 51 |
| Qazax-Tovuz iqtisadi rayonu, cəmi | 13372 | 13175 | 133 | 64 |
| Quba - Xaçmaz iqtisadi rayonu, cəmi | 11615 | 11418 | 124 | 73 |
| Lənkəran-Astara iqtisadi rayonu, cəmi | 17074 | 16861 | 141 | 72 |
| Mərkəzi Aran iqtisadi rayonu, cəmi | 15139 | 14902 | 158 | 79 |
| Mil-Muğan iqtisadi rayonu, cəmi | 9737 | 9573 | 101 | 63 |

| | | | | |
|---|---|---|---|---|
| Şəki-Zaqatala iqtisadi rayonu, cəmi | 15783 | 15541 | 147 | 95 |
| Şərqi Zəngəzur iqtisadi rayonu, cəmi | 1156 | 1113 | 28 | 15 |
| Şirvan-Salyan iqtisadi rayonu, cəmi | 9941 | 9761 | 111 | 69 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/, 01.01.2022

Mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrdə iqtisadi fəaliyyət növləri üzrə işçi sayı (muzdlu) fərqlilik göstərir. Bu fərqliliyin illər üzrə müqayisəsi və sahibkarlıq subyektləri üzrə işçi sayı Cəvdəl 10-də qeydə alınmışdır.

**Cədvəl 10: İqtisadi fəaliyyət üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrdə çalışan işçilərin sayı, nəfər (2019-2020)**

| İqtisadi fəaliyyət | Cəmi | 2019 | | | Cəmi | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| İqtisadi fəaliyyət növləri, cəmi | 332,255 | 40,233 | 85,072 | 206,950 | 348,723 | 40,850 | 92,125 | 215,748 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 16,749 | 2,425 | 3,961 | 10,363 | 18,175 | 2,231 | 4,562 | 11,382 |
| Sənaye cəmi | 79,994 | 5,081 | 14,538 | 60,375 | 80,104 | 4,442 | 15,901 | 59,761 |
| Mədənçıxarma sənayesi | 4,249 | 386 | 1,360 | 2,503 | 4,533 | 403 | 1,582 | 2,548 |
| Emal sənayesi | 47,423 | 3,950 | 10,536 | 32,937 | 47,270 | 3,327 | 11,304 | 32,639 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 13,521 | 558 | 859 | 12,104 | 14,485 | 501 | 962 | 13,022 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 14,801 | 187 | 1,783 | 12,831 | 13,816 | 211 | 2,053 | 11,552 |
| Tikinti | 48,551 | 3,537 | 11,280 | 33,734 | 58,734 | 3,845 | 14,425 | 40,464 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 57,928 | 7,675 | 18,297 | 31,956 | 55,347 | 7,126 | 19,239 | 28,982 |
| Nəqliyyat və anbar təsərrüfatı | 21,513 | 1,645 | 4,758 | 15,110 | 23,139 | 2,017 | 4,865 | 16,257 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Təhsil | 9,348 | 1,720 | 2,492 | 5,136 | 8,682 | 1,875 | 1,700 | 5,107 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 15,403 | 1,814 | 4,725 | 8,864 | 16,021 | 2,197 | 4,776 | 9,048 |
| Digər sahələr | 45,519 | 10,767 | 14,355 | 20,397 | 49,365 | 10,773 | 15,414 | 23,178 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/, 01.01.2022

Cədvəl 10-də iqtisadi fəaliyyət üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrdə çalışan işçilərin sayı 2019 və 2020-ci illər üzrə müqayisə edilmişdir. Təhlilə əsasən biznes subyektlərində işçi sayının bütün iqtisadi fəaliyyət növləri üzrə artım göstərdiyini görə bilirik.

## 2.2. Maliyyə institutlarının və bankların KOS – ların fəaliyyətinə təsiri

İqtisadiyyatda sahibkarların biznes planlarını həyata keçirməsi üçün ən mühüm vasitələrdən biri, bəlkə də birincisi maliyyədir. Nizamnamə kapitalının olması və ya biznes fəaliyyətinin bir müddətdən sonra sürətli inkişaf etməsi üçün maddi vəsaitə ehtiyac duyulur. Təbii ki, maddi ehtiyacın qarşılanması üçün bir çox alternativ variantlar mövcuddur. Bu variantlar sahibkar tərəfindən borc alınması, şəxsi mülkün və ya mülklərin satılması ilə və s. qarşılana bilər. Son dövrlərdə isə maliyyə institutları, investisiya holdinqləri və banklar maddi vəsaitlərin qarşılanmasında aktiv fəaliyyət göstərir. Sahibkarlara biznes kreditlərinin verilməsi, güzəştli şərtlərlə maliyyə təkliflərinin edilməsi, biznesin intensiv inkişafının təmin edilməsi, xərclərin azadılması yönümündə bazarda fondlar və banklar arasında rəqabət artmaqda davam edir.

Bəs, bazarda olan rəqabət hansı fondlar və banklar arasındadır? Sahibkarlara edilən təkliflər nələrdir? Tədqiqatın bu hissəsində sahibkarların dostu və dəstəkləyiciləri, onların inkişaf etməsində maraqlı olan kommersiya şirkətləri haqqında bəhs ediləcəkdir.

Biznes kreditlərinin verilməsində maliyyə fondlarının rolu əvəzsizdir. Daha aşağı faizlə kreditlərin alınmasında, subsidiyaların verilməsində maliyyə fondları öz dəstəyini göstərməkdədir. Təbii ki, sahibkarların bu güzəştli təkliflərdən istifadə etməsi üçün bankların da rolunu qeyd etmək mühüm məsələdir. Fondlar tərəfindən güzəştli kreditlərin, subsidiyaların verilməsi bankların vasitəsilə həyata keçirilir (http://edf.gov.az/az/content/97, 2018).

Sahibkarlığın İnkişafı Fondunun məhsulları barədə məlumatı aşağıdakı cədvəldə görə bilərik.

**Cədvəl 11: Sahibkarlığın İnkişafı Fondunun məhsulları barədə məlumat**

| | Güzəştli kredit mexanizmi | Avadanlıq krediti mexanizmi | Subsidiya və zəmanət mexanizmi | Subsidiya mexanizmi |
|---|---|---|---|---|
| Əhatə dairəsi | Prioritet istiqamətlər | Yalnız avadanlıq alışı | Pandemiyadan zərər çəkmiş sahələr | Pandemiyadan zərər çəkmiş sahələr |
| Kreditin məbləği | 5%-ə qədər | 5000–3000000 manata qədər | 3000000 manata qədər | 5000000 manatadək (qalıq məbləğ) |
| Kreditin faiz dərəcəsi | 5%-ə qədər | 9%-ə qədər | 15%-ə qədər | Faizindən asılı olmayaraq |
| Kreditin müddəti | 10 ilə qədər | 5 ilə qədər | 3 ilə qədər | Müddətindən asılı olmayaraq |
| Kredit üzrə güzəşt müddəti | Kredit müddətinin yarısına qədər | 12 aya qədər | 12 aya qədər | |
| Subsidiyanın müddəti | | | 3 ilə qədər | 12 ay (2020-ci ilin martından etibarən) |
| Zəmanətin kreditə nisbəti | | | 60%-ə qədər | |
| Subsidiya həcmi | | | Faiz dərəcəsinin 50%-i həcmində | Faiz dərəcəsinin 10% hissəsi |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu (http://edf.gov.az/az/content/181, 2021)

Cədvəldə qeyd olunmuş Fondun məhsulları sahibkarlara aşağı faizlərlə maliyyə resurslarının əldə olunmasında köməklik göstərir.

Kredit vəsaitlərinin verilmə həddi aşağıdakı kimi təyin olunmuşdur:

- 1000 manata qədər- mikrokreditlər;
- 1000 manatdan 20000 manata qədər – kiçikhəcmli kreditlər;
- 20000 manatdan 50000 manata qədər - ortahəcmli kreditlər;
- 50000 manatdan 200000 manata qədər – böyükhəcmli kreditlər;

Sahibkarlıq subyektləri tərəfindən kredit vəsaitlərinin istifadə müddəti:

- Mikrokreditlər – 24 ayadək;
- Kiçik və ortahəcmli kreditlər – 36 ayadək;
- Böyükhəcmli kreditlər – 60 ayadək;

Kredit vəsaitlərinə təyin olunmuş güzəşt müddəti (http://akia.gov.az/az/kreditler, 2021):

- Mikrokreditlər – 1 ilədək;
- Kiçik və ortahəcmli kreditlər – 1 il 6 ayadək;
- Böyükhəcmli kreditlər – 2 ilədək.

Ölkə də sahibkarlıq fəaliyyətini artırmaq, yatırım şəraitini daha diqqət çəkici etmək üçün Fond mütəmadi olaraq biznes forumlar keçirir. Bu forumların nəticəsi olaraq sahibkarlıq subyektlərinə güzəştli kreditlərdən istifadə qaydaları izah olunur, inzibati bölgənin iqtisadi potensialına uyğun maliyyələşdiriləcək investisiya layihələrinin və investisiya layihələrinin hazırlanması və təqdim edilməsi üzrə təlimlər təqdim olunur, sahibkarlar arasında işgüzar münasibətlər və kredit təşkilatlarının səlahiyyətli üzvləri təqdim olunur. Kreditlərin formalaşması və alınması ilə bağlı məsələlər müzakirə olunur, sahibkarların təklifləri öyrənilir, investisiya layihələri və güzəştli kredit şərtləri biznesə təqdim olunur. 2016-cı il ərzində Fond 39 biznes forumu, o cümlədən bölgələrdə 33, Bakı qəsəbələrində 6 forum keçirmişdir. Forumlarda sahibkarlara güzəştli kreditlər verildi, 3960

sahibkarlıq subyekti, o cümlədən bölgələrdə 3350 sahibkar və Bakıdakı 610 sahibkar iqtisadi motivlərlə öyrədildi, investisiya planları təqdim olundu, müvəkkil kredit təşkilatlarının üzvləri və sahibkarlıq subyektləri iqtisadi təmin edildi imkanlar. Onun optimal istifadəsi üçün müzakirələr aparıldı, tədbirin keçirildiyi şəhər və rayonlarda investisiya layihələrinin qəbulu ilə bağlı mətbuatda elanlar yayımlandı. Bu forumların əsas məqsədi sahibkarlıq subyektləri ilə Bakı və onun rayonlarının həmçinin, yaşayış məntəqələrinin var olan iqtisadi potensialının gerçəkləşdirilməsilə bağlı müzakirələr aparmaq, sahibkarların təkliflərini öyrənmək, güzəştli kreditlərin verilmə qaydalarını izah etmək, təsərrüfat subyektləri ilə işgüzar münasibətlər qurmaq və əldə etməkdir.

Beləliklə, həqiqi sahibkarlar fərdi şəxsləri sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa və güzəştli kreditlər hesabına biznes qurmağa təşviq etməklə müəyyən edilir. Sahibkarlığa Kömək Milli Fondu bu layihələrin maliyyələşdirilməsi üçün təsirli tədbirlər görür.

Bununla yanaşı müvəkkil kredit təşkilatlarının sahibkarlıq subyektləri ilə daha müntəzəm işləməsinə, potensial sahibkarları müəyyənləşdirməsinə və nəticədə daha kiçik və orta biznes planlarını maliyyələşdirməsinə şərait yaradır.

Sahibkarlığa Kömək Milli Fondu vasitəsi ilə yüksək texnologiyaların tətbiqinə əsaslanan genişmiqyaslı investisiya layihələrinin maliyyələşdirilməsi ilə yanaşı, əsas prioritet istiqamətlərdən biri kiçik investisiya layihələrinin güzəştli əsaslarla maliyyələşdirilməsidir (Bağırzadə E.R., 2016).

2018-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 2477 iş adamına 24,5 milyon manat incə avans verilib. Bu irəliləyişlər sayəsində 8106 yeni öhdəlik qoyulmuşdur.

Kredit müəssisələrinin 74 faizi respublikanın ərazilərinə, 26 faizi isə Bakı qəsəbələrinə verilib.

2016-cı il ərzində 2,402 kiçik biznes planına 22,9 milyon manata qədər güzəştli kredit verilib. Bu kreditlərin köməyi ilə 3400-ə qədər yeni müəssisə yaradılıb.Güzəştli

kreditlərin 82, 2 faizi kənd təsərrüfatının inkişafı, 17, 8 faizi müxtəlif istiqamətlərdə inkişaf üçün ayrılıb.

Kiçik kreditlərdən ən çox istifadə edən, məcburi köçkünlər, əlillər, gənc və qadın sahibkarlar, həmçinin aztəminatlı ailələr üçün iş imkanlarının yaradılması həmişə vacibdir. 173 məcburi köçkünə 2,4 milyon manat, 263 qadına 10.5 milyon manat və 487 gənc sahibkara 44.7 milyon manat yardım edilmişdir. Bu kreditlər hesabına 266, 488 və 1695 yeni iş yerləri yaradılmışdır. Bu, 2018-ci ildə verilmiş ümumi kredit məbləğinin 37,3 faizi, maliyyələşdirilən layihələrin sayının 30.3 faizi və yaradılan yeni iş yerlərinin 30.3 faizi deməkdir.

Kənd təsərüffatının inkişafı üçün dövlət həqiqətən də vençur layihələrinin icrasına, incə kreditlərin ayrılmasına diqqət yetirir və bu yolda işlər durmadan genişlənir. Hökumət tərəfindən dəstəklənən tədbirlərin nümunəsi Fonddan incə avansların təşkilidir. Kənd təsərrüfatının yaxşılaşdırılması ilə bağlı 2351 fəaliyyət növünə 156 milyon manat dəyərində kredit verilib.

Əhalinin ərzaq təminatını əlavə olaraq yaxınlıqda yaratmaqla inkişaf etdirmək üçün ölkənin 20 idarəetmə yerində 44.000 hektar ərazidə 22 təsərrüfat subyekti tərəfindən 32 nəhəng ranço salınmışdır. Güzəştli irəliləyişlər vasitəsilə nəhəng ev təsərrüfatlarının təməli üçün dəstək köməkçi torpaq bazarının bərpası ilə işləmişdir.

Bölgədəki inkişafla əlaqəli qərarların əsaslandırılması ilə yanaşı, bu sahədə investisiya təşəbbüslərini dəstəkləyən mexanizmlərin inkişafı da vacibdir. Birinci fəsildə qeyd olunduğu kimi, bölgələrdə iqtisadi və sosial inkişaf təşəbbüslərini və yerli sahibkarlığı təşviq etmək üçün Regional İnkişaf Agentliklərinin və İcma İnkişaf Şuralarının formalaşmasına və inkişafına dəstək vermək üçün tədbirlər görmək olar.

Dövlətin əsas məqsədlərindən biri iqtisadiyyatın bir resursdan azad olunmasını təmin etməkdir. Resurs Sindromunun aradan qaldırılması üçün isə ölkə iqtisadiyyatı qeyri-neft sektoru üzrə yol almalıdır. Azərbaycanın strateji mövqeyi, təbii resursları və iqlim şəraiti qeyri-neft sektorlarından biri olan kənd təsərrüfatının inkişaf etdirilməsi üçün əlverişlidir. Bütün qeyd olunan və qeyd olunmayan faktorları nəzərə

alaraq dövlət kənd təsərrüfatı sahəsinin genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı yanında Aqrar Kredit və İnkişaf Agentliyini təsis etmişdir. Agentlik fəaliyyət göstərdiyi dövr ərzində iqtisadiyyatın kənd təsərrüfatı üzrə payında yaranmış artımda birbaşa çıxış etmişdir. Bir çox sahibkarlıq subyektləri Agentlik tərəfindən təşkil olunmuş layihələrdə iştirak edərək, subsidiyalardan istifadə edərək öz fəaliyyətlərini genişləndirmişlər. Kənd təsərrüfatı sahəsi daxili bazardan dünya bazarına çıxışı mümkün olan potensiallı sahələrdən biridir. Yerli məhsulların xarici ölkələrə satılması, ölkəyə xarici valyutanın gətirilməsinə, fəaliyyətin genişlənməsi isə məşğulluq dərəcəsinin artımına səbəb olur. Cədvəl 7-də kənd təsərrüfatı məhsullarının ixracı və xarici bazardan ölkəyə daxil olan vəsaitin statistikası əks olunmuşdur. Bu qeyri-neft sektorunun, əsasən də kənd təsərrüfatı sahəsinin nə qədər perspektivli və önəmli olduğunu göstərir.

**Cədvəl 12: Kənd təsərrüfatı məhsullarının ixracı**

| **Məhsulun adı** | **2019-cu il** | | **2018-ci il** | | **Keçən ilin müvafiq dövrünə nisbəti, %-lə** | |
|---|---|---|---|---|---|---|
| | **Miqdarı (ton)** | **Məbləği (min ABŞ dolları)** | **Miqdarı (ton)** | **Məbləği (min ABŞ dolları)** | **Miqdara görə** | **Məbləğə görə** |
| Tərəvəz | 129263.4 | 99363.5 | 99817.3 | 72 626 | 129.5 | 136.8 |
| Meyvə | 36511.6 | 67142.2 | 32676.1 | 52887.1 | 111.7 | 127 |
| Tütün xammalı | 1324.7 | 5343.4 | 844.1 | 3095.3 | 156.9 | 172.6 |
| Pambıq | 8086.8 | 12642.1 | 3944.7 | 6136.8 | 2.1 d | 2.1 d |
| Gön-dəri xammalı (min ədəd) | 6029.5 | 5 465.2 | 5 169.9 | 7 534.5 | 116.6 | 72.5 |
| Digər | 293.6 | 263.2 | 124.3 | 228.6 | 2.4 d | 115.1 |
| Cəmi | | 190 220.6 | | 142 508.3 | | 133.5 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (http://iqtisadiislahat.org/columns/kend_teserrufati_azerbaycan_iqtisadiyyatinin_strateji_sektoru_kimi-14, 2016)

Sahibkarlıq subyektlərinin maliyyə resursları ilə təmin olunmasını, dəymiş zərərin ödənilməsini, avadanlıq və əsas vəsaitlərlə təmin olunmasını həyata keçirən digər qurumlar isə banklar və maliyyə institutlarıdır. Banklar və maliyyə institutları

sahibkarların dostu, onların bir növ məsləhətçisi hesab olunurlar. Banklar və maliyyə institutlarının əksəriyyəti kommersiya şirkətləridir. Onların gəlir, mənfəət qazanması ölkədə olan sahibkarlıq fəaliyyətinin inkişafından, sağlam olmasından, şaxələnməsindən və genişlənməsindən asılıdır. Biznes fəaliyyəti nə qədər gəlirli və çox şaxəli olarsa banklar və maliyyə institutları da bir o qədər çox mənfəət əldə etmiş olar.

Hal-hazırda ölkədə 26 bank fəaliyyət göstərməkdədir və hər birinin fiziki şəxslər və sahibkarlar olaraq müəyyən portfelləri mövcuddur. Bank bazarı cari dövrdə rəqabəti, innovativ yenilikləri, xüsusi təklifləri ilə inkişaf etməkdədir. Hər bir kommersiya şirkətində olduğu kimi, banklar da daha çox müştəri cəlbi üçün çalışır və öz portfellərini genişləndirmək istəyirlər. Buna görə də banklar üçün əsas hədəf sahibkar subyektlərini cəlb etmək və onların maliyyə resurslarına nəzarət etməkdir. Azərbaycan iqtisadiyyatında bankların sahibkar subyektlərinə ehtiyacı olduğu kimi, sahibkarların da banklara ehtiyacı var. Hər bir sahibkar səmərəli, operativ, innovativ, daha uyğun güzəştli təkliflər edən banklarla əməkdaşlıq etmək istəyir. Sahibkarlar öz maliyyə resurslarını, əməliyyatlarını banka etibar edirlər. Buna görə də bankların etibarlı, dürüst və şəffaf olması sahibkarlar üçün önəmli hesab olunur. Ölkədə sahibkarlıq subyektləri arasında kiçik və orta biznes fəaliyyəti ilə məşğul olan sahibkarlar çoxluq təşkil etdiyi üçün və yeni-yeni bu həcmli sahibkarlıq subyektləri yarandığı üçün bank bazarında rəqabət gündən-günə artmağa davam edir. Təbii ki, rəqabətin artması dəyişikliklərin olmasına zəmin yaradır.

Müsbətə doğru dəyişikliklər ssahibkarların banka cəlb edilməsi üçün əsas vasitələrdəndir. Beş il bundan əvvələdək sahibkarlar bankla işləməyə daha çox maraqlı tərəf idisə, hal-hazırda banklar bu baxımdan bir-biri ilə yarışmaqdadırlar. Ən yaxşı güzəşti, ən yaxşı sistemi, ən şəffaf və ən səmərəli təklifi hansı banklar tərəfindən təklif edilirsə biznes fəaliyyəti ilə məşğul olan sahibkarlar da onlarla partnyorluq edirlər.

Kiçik və orta sahibkarlar üçün banklar tərəfindən yerinə yetirilməli olan önəmli məsələlər bunlardır.

- bank əməliyyatlarının çevik yerinə yetirilməsi;
- əmanətlərin sığortalanması və etibar edilməsi;
- digər banklara nisbətən daha aşağı faizlərlə kreditlərin verilməsi;
- bank əməliyyatları zamanı güzəştli tariflərin verilməsi;
- bank xərclərinin az olması;
- bankın əlçatan olması;
- bank məhsullarının çox çeşiddə olması;
- sahibkarların sorğularını operativ şəkildə cavablandırması;
- sahibkarların təkliflərini dəyərləndirməsi və s;

Kiçik və orta sahibkarların tez-tez ölkədaxili, xaricə köçürmə əməliyyatları olduğuna görə onlar üçün bankın ödənişləri sürətli şəkildə icra etməsi vacibdir. İnnovativ yeniliklərin olması sahibkarların işlərini daha da asanlaşdırır və sürətləndirir. Ölkədə əksər banklarda məsafədən bankçılıq sistemi mövcuddur ki, sahibkarlar və ya sahibkarlıq subyektlərinin maliyyəçiləri banka, onun filialına, şöbəsinə və ya nümayəndəliyinə yaxınlaşmadan əməliyyatlarına həyata keçirə bilər və ödənişlərini edə bilərlər.

Bank sahibkarın dostudur, çünki onun fəaliyyətinin genişlənməsinə maraqlıdır. Sahibkar çox gəlir etdikcə bank da həmin sahibkardan daha çox qazanc əldə edəcəkdir. Sahibkarlıq subyektlərinin genişlənməsi, inkişafı üçün müvəkkil bank kredit öhdəliyinin ayrılması üçün təkliflər irəli sürür. Sahibkarlıq subyektlərinə maliyyə resurs ehtiyacını müvəkkil bank öz vəsaiti hesabına və ya yuxarıda qeyd olunmuş fondlar vasitəsilə ayıra bilər. Biznes fəaliyyəti ilə məşğul olan şəxslər üçün faizlərin aşağı olması, şərtlər və güzəştlərin uyğun olması mühüm məsələdir. Buna görə də kiçik və orta sahibkarların əksəriyyəti öz daxili vəsaiti çox olan və fondlar hesabına kredit öhdəliyini rahat şəkildə ayıra bilən banklarla əməkdaşlıq etmək

istəyirlər. Sahibkarlar öz pul və qiymətli vəsaitlərini banka əmanət edirlər və konfidensial məlumatlarını onlarla bölüşürlər. Buna görə də bankın etibarlı, dayanıqlı, keyfiyyətli və gəlirli olması önəm kəsb edir.

Kiçik və orta sahibkarlar fəaliyyət etdikləri dövr ərzində müəyyən zərərlə üzləşirvə subyektin ilkin olaraq maliyyələşdirilməsi üçün müəyyən vəsaitə və ya şirkətin qurulması üçün əsas vəsaitlərə ehtiyacı olur. Zərərin bir hissəsinin qaytarılması, fəaliyyətin ilkin olaraq başlanması üçün sığorta şirkətləri, lizinq, investisiya şirkətlərinin və s. rolu önəmlidir. Sahibkarlar riski bölüşdürməli, zərəri minimuma endirməlidirlər. Buna görə də banklar və digər fondlarla yanaşı sığorta şirkətləri, investisiya holdinqləri, lizinq təşkilatları və s. ilə əməkdaşlıq edirlər.

Kiçik və orta sahibkarlığın (KOB) iqtisadi inkişafda rolunu nəzərə almadan dünyadakı ölkələrin iqtisadiyyatı barədə çox məlumat vermək olmaz. Onlar həm əhalinin əksəriyyətinin gündəlik mal və xidmətlərə olan istehlakçı tələblərini qarşılayır həm də demək olar ki, ölkələr və ərazilər arası qlobal ticarət və iqtisadiyyata əhəmiyyətli inkişaf töhfələri verir . Bundan əlavə, KOM-lar işçi qüvvəsinin böyük hissəsini məşğulluqla təmin edir. KOM-ların başlanğıc mərhələsində və ya inkişaf mərhələsində qarşılaşdıqları əsas maneələrdən biri maliyyəyə çıxışdır. Maliyyə hesabatlarının düzgün qaydada aparılması və nəticə yönümlü yaradılması onların maliyyə resursları əldə etmək şanslarını artırır. Xarici cəlb etmək üçün gəlirli investisiya imkanları və təklifləri ilə bərabər Kiçik biznes subyektlərinin hesabatlarının da beynəlxalq tələblərə və standartlara cavab verməsi lazımdır. Bu standartlar Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən müəyyən edilirlər.

# III FƏSİL. GƏLƏCƏK DÖVRDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN AZƏRBAYCAN İQTİSADİYYATINDAKI PAYININ ARTIRILMASI YOLLARI

## 3.1. KOS-lara qoyulan məhdudiyyətlər və onların aradan qaldırılması yolları

Azərbaycan iqtisadiyyatı 2006-cı ildən bəri sürətlə artır və ÜDM-nin orta real artım göstəricisi 11%-dən yüksəkdir. Ölkə iqtisadiyyatında əsas payı neft sektoru tutsa da infrastruktura qoyulan dövlət invesitisiyaları özəl sektorun inkişafına səbəb olmuşdur. Lakin bunlara baxmayaraq özəl sektorun inkişafında məhdudiyyətlərin olması iqtisadiyyatın diversifikasiyasında yubanma yaratmaqdadır. Aşağıda qeyd olunan məhdudiyyətlər həm kiçik və orta sahibkarların düzgün

qiymətləndirilməsində, həm də iqtisadiyyatın potensial inkişafına məhdudiyyət yaradan səbəblərdir. Bu məhdudiyyətlərin olmasına baxmayaraq qeyri-neft sektorunun payı ildən-ilə artmaqdadır. Qrafik 2-də qeyi-neft sektorunun sahələr üzrə yaradılmış əlavə dəyərin bölgüsünü görə bilərik.

**Qrafik 2: Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü**




**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (https://economy.gov.az/article/azerbaycan-respublikasinda-qeyri-neft-sektorunun-inkishafi-2018-ci-ilin-birinci-rubu-uzre/29186, 2018)

Kiçik və orta sahibkarlıq subyektlərinin inkişafında əsas məhdudiyyətlər və onların həlli yolları:

**Biznes mühiti**

Sahibkarlıq subyektlərinin inkişafında azad rəqabətin olmaması, vergi və ədliyyə sistemində olan problemlər, biznes qeydiyyat sahəsində sənədlərin, lisenziyaların alınması və s. kimi məhdudiyyətlər əngəl yaratmaqdadır. Təbii ki, bu məsələlərdə dövlətin dəstəyi olmalı və dəyişikliklər edilməlidir. Azad iqtisadi zonaların yaradılması, qeyri-formal monopoliyaların azaldılması, bütün oyunçulara şansların verilməsi mütləqdir. Vergilərin sənədləşdirilməsi və ödənilməsi onlayn sistemə keçirilsə də onun təkmilləşdirilməsi vacibdir. Vergilər Nazirliyi məlumatların digər dövlət strukturlarına ötürülməsi üçün baza yaratmalı və koordinasiyaya nəzarət etməlidir. Bəzi vergi dərəcələrinin azaldılması, pandemiyadan zərər çəkmiş və prioritet sahələrə güzəştlərin edilməsi barədə layihələr hazırlanmalı və icra

edilməlidir. Ədliyyə sisteminin fəaliyyəti təkmilləşdirilməli, məhkəmə sistemi daha operativ olmalı, sistemin hüquqi məsləhət potensialları artırılmalıdır. Biznes mühiti yalnız Bakı və Abşeron yarımadasında deyil, bölgələrdə də inkişaf etdirilməlidir. İqtisadiyyat bölgə olaraq birtərəfli deyil, hərtərəfli inkişaf etməlidir (Bayramov V., Hasanov R., Aghayarli L., Kadyrov Z., Aghahasanli İ., Isayev S. 2017).

**Peşəkar kadrların çatışmazlığı**

Məşğulluq imkanlarının yaradılması və işçi qüvvəsinin məhsuldarlığının artırılması müasir bazar iqtisadiyyatının əsaslarına dəstək verən həlledici elementlərdən hesab olunur. İqtisadiyyatın yüksək artım tempinin olması iqtisadi cəhətdən fəal əhali tərəfindən bu artımların mənimsənilməsinə kömək etməkdədir. Ölkədə işsizlik səviyyəsinin azaldılması kiçik və orta sahibkarlıq subyektlərinin artması ilə tərs mütənasibdir. Yeni iş yerlərinin açılması fəal əhalinin işlə təmin olunması probleminin aradan qaldırılmasında böyük dəstək verir. Təbii ki, fəal əhalinin hər biri peşəkar kadr deyil. İşçinin kadr kimi yetişməsi onun fəaliyyət göstərdiyi sektora ümumilikdə isə iqtisadiyyata öz töhfəsini verməsi deməkdir. Əlbəttə ki, kadr hazırlanmasında xüsusi treyninqlərin, kursların və s. olması önəmli amillərdəndir. Sahibkarlıq subyektlərinin əksəriyyəti bu kimi treyninq və məşğələlərin təşkil edilməsində həm maddi, həm də fiziki olaraq tam dəstək göstərə bilmirlər. Dövlət kadr çatışmazlığının aradan qaldırılması üçün pulsuz treyninq, kurs və forumların keçirilməsində bilavasitə iştirak etməlidir və ya sahibkarlara bununla əlaqədar olaraq öz dəstəyini göstərməlidir. Aşağı vəzifələrdə çalışan işçilərdən əlavə şirkətlərin müvafiq rəhbərlik və administrativ qabiliyyətlərə malik kadrlara ehtiyacı vardır. Həmin ehtiyacın aradan qaldırılması üçün təhsil sistemindən tutmuş iş mühitinə kimi dövlətin təhsil müəssisələri və şirkətlər ilə həmrək olması vacibdir (Bayramov V., Hasanov R., Aghayarli L., Kadyrov Z., Aghahasanli İ., Isayev S. 2017).

**Dövlət idarəçiliyində qərarvermə və koordinasiya**

Dövlət idarəçiliyində qərarvermə problemi artıma olan digər maneələrdən biridir. Özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafı üçün yeni strategiyalar, yeni

qaydalar və mexanizmlərin hazırlanması əsas şərtdir. Onların qiymətləndirilməsi, effektivliyinin hesablanması hökümətin əsas borcudur. Sahibkarlıq subyektlərinə nəzarətdən əlavə onların inkişafı üçün perspektivlərin araşdırılması bununla bağlı hesabatların hazırlanaraq dövlət strukturlarına koordinasiya edilməsi başlıca vəzifələrdəndir. Qərarvermə gücünün zəif olması və məsuliyyətlərin qənaətbəxş olmaması yeni sahibkarlıq subyektlərinin yaranmasında problemlər yaradır. Hökümət bunlarla bağlı bəzi köklü dəyişiklilər etmək məcburiyyətindədir (Bayramov V., Hasanov R., Aghayarli L., Kadyrov Z., Aghahasanli İ., Isayev S. 2017).

**İnfrastruktur**

Ölkədə 2000-ci illərin əvvəlinə nisbətən hal-hazırda infrastruktur üzrə ciddi dəyişikliklərin olmasını görmək mümkündür. Lakin, bu dəyişiklər əsasən Bakı və Abşeron yarmadasında, əsasən də şəhər mərkəzinə yaxın olan ərazilər üçün şamil edilmişdir. Ölkənin hər bir yerində sahibkarlar üçün infrastrukturun gücləndirilməsi, enerji mənbələri, nəqliyyat, su təchizatı və s. üzrə xərclərin azaldılması vacibdir. Bölgələrdə enerji, nəqliyyat kimi problemlər hələ də qalmaqda davam edir. Bu kimi hallar xammala meyilli biznes sahələrinin inkişafına mənfi təsir göstərməkdədir (İmanov Ə. 2009).

**Qlobal iqtisadiyyata inteqrasiya**

Qlobal iqtisadiyyata inteqarsiya neft sektoru üzrə mümkün olsa da, digər sahələr üzrə bunu demək mümkün deyil. Ölkədaxili tələbatın tam ödənilməməsi dünya iqtisadiyyatına yerli məhsulların satışını həyata keçirməkdə çətinlik yaradır. Daxili tələbatın ödənilməsinə potensial olsa da infrastruktur və yuxarıda qeyd olunan digər məhdudiyyətlərin olması buna maneə göstərir. Yerli məhsulların dünya iqtisadiyyatına ixracatı üçün həm məhdudiyyətlərin çox hissəsi aradan qaldırılmalı, həm də gömrük rüsumları və gömrük qanunvericiliyində müsbətə doğru dəyişikliklər olmalıdır (İmanov Ə. 2009).

Dünya iqtisadiyyatının inkişafının indiki mərhələsində biznesin idarə edilməsinin mövcud modelləri sahibkarlıq fəaliyyətini və bazarın

özünütənzimləməsini dövlət planlaşdırmasını əhatə edən dövlət tənzimləmə üsulları ilə optimal şəkildə birləşdirməyə imkan verən inteqrasiya olunmuş idarəetmə sisteminin formalaşdırılmasına (proqramlaşdırma, proqnozlaşdırma, təşkilatlanma, koordinasiya, stimullaşdırma, idarəetmə və nəzarət) əsaslanır. Biznes strukturlarının fəaliyyətində muxtariyyət dərəcəsi, iqtisadiyyata dövlət müdaxiləsinin miqyası, direktiv, indikativ və bazar tənzimlənməsinin optimal nisbəti elmi mübahisələrin predmetidir və əsasən dövlətin iqtisadi siyasətinin seçilmiş istiqaməti ilə müəyyən edilir.

Bazar iqtisadiyyatı şəraitində kommersiya fəaliyyətinin səmərəli şəkildə təşkil olunması sahibkarlar üçün çox mühim məsələdir. Kommersiya fəaliyyətində rəqabət qabiliyyətliliyinin təmin olunması eləcə də beynəlxalq bazar sistemində inteqrasiyalı fəaliyyətinin həyata keçirilməsi, bu sektora aid digər firmaların bazardan sıxışdırılıb çıxarılması kommersiya fəaliyyətinin effektivliyinin göstəricisidir.

Ticarətdə zəif sektorların dirçəldilməsi, bu istiqamətdə dəstək tədbirlərinin çox böyük əhəmiyyəti var. Respublikamızın büdcəsinə ticarət sektorundan gələn gəlirlər içərisində neft sektorunun payı yüksək, qeyri-neft sektorunun payı isə çox aşağıdır. Bu gün Azərbaycan Respublikasının hədəflədiyi əsas məsələlərdən biri də perspektivli sahə olan qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bunu da qeyd edək ki müasir bazar iqtisadiyyatı şəraitində kommersiya işinin ümumi strukturu gündən-günə daha da genişlənir və təkmilləşir (Мацибора В.І., Збарський В.К., Мацибора Т.В., 2018: с.312). Buna uyğun olaraq rəqabət qabiliyyətli ticarət gündən-günə daha da genişlənir və təkmilləşir. Buna uyğun olaraq rəqabət qabiliyyətli ticarət fəaliyyətini həyata keçirmək istəyən hər bir sahibkar daimi bu yeniliklərə uyğunlaşmalı və bu yenilikləri daimi ən səmərəli şəkildə tətbiq etməlidir.

Sahibkarlığın tənzimlənməsində dövlətin rolu ilə bağlı nəzəri fikirlərin təhlili sahibkarlıq fəaliyyətinə dövlətin təsiri sahəsində üç əsas yanaşmanı müəyyən etməyə imkan verir. Birincisi, siyasi iqtisad klassiklərinin nəzəriyyəsinə əsaslanaraq rəqabət azadlığını, fəaliyyət sahəsini seçmək azadlığını, dövlətin iqtisadi proseslərə

qarışmamasını nəzərdə tutur. A.Smit iddia edirdi ki, məhz sahibkarın öz şəxsi maraqlarına nail olmaq istəyi iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir, nəticədə həm özünün, həm də bütövlükdə cəmiyyətin rifahını yüksəldir. Digər yanaşma isə monetarist nəzəriyyələrə əsaslanan makroiqtisadi siyasətin həyata keçirilməsini nəzərdə tutan "iqtisadiyyata məhdud dövlət müdaxiləsi" kimi təqdim oluna bilər. Monetaristlərin (Fişer İ, M.Fridman) neoklassik nəzəriyyəsinə görə, dövlət iqtisadiyyata yalnız dolayı yolla təsir göstərə bilər, ölkənin iqtisadi inkişafının həyata keçirilməsində əsas rol isə bazar qüvvələrinə verilir. Üçüncü yanaşma (T. Man, A. Montkreten) iqtisadiyyata dövlətin aktiv müdaxiləsinin zəruriliyini irəli sürür .(Man T., 2017)

Bazar iqtisadiyyatı şəraitində əmtəə-pul münasibətləri üstünlük təşkil edir. Bura uyğun olaraq müəssisələrdə istehsal olunan hər bir məhsul mübadilə mərhələsindən keçir, yəni mütləq alınır və satılır.

Biznes fəaliyyəti əmtəə və xidmətlərin alqı-satqısı proseslərini həyata keçirmək və istehlakçıların maddi və ya qeyri-maddi nemətlərə olan tələbatını ödəməklə mənfəət əldə etməyə yönəlmiş fəaliyyətdir. Bundan başqa biznes fəaliyyətinə mənfəətin və paylanma xərclərinin minimuma endirilməsi, malların hədəf bazarlarının inkişafı daxildir.

Malların tədarükü və alınması zamanı bazarın vəziyyəti öyrənilir, bununla yanaşı biznes əməliyyatları, müqavilələrin bağlanması və əmtəə-pul mübadiləsinə yönəldilmiş biznes əməliyyatları həyata keçirilir, təchizatçılarla iqtisadi əlaqələr qurulur, müqavilələrin bağlanması, biznes əməliyyatları, əmtəə-pul mübadiləsinə yönəldilmiş biznes əməliyyatları həyata keçirilir.

Biznes termini latın mənşəli "commercium" sözündəndir, mənası ticarət deməkdir.

Biznes sözü ikili məna daşıyır: bir halda milli iqtisadiyyatın müstəqil sahəsini ifadə edir, digərində isə satış aktlarının həyata keçirilməsinə yönəlmiş ticarət prosesləri anlamını daşıyır.

Bizbesin ikinci konsepsiyası isə alqı-satqı əməliyyatlarının həyata keçirilməsi ilə yekunda mənfəət əldə etmək məqsədi daşıyan ticarət prosesləri ilə bağlıdır. Bu anlayışlar daha ucuz alıb baha satmaq niyyəti ilə satış aktlarının həyata keçirilməsini nəzərdə tutur. Bunu da, qeyd edək ki, biznes termini, qısa mənada ticarət, ticarət-vasitəçilik fəaliyyəti və ticarət xidmətinin marketinqi, geniş mənada sahibkarlıq fəaliyyəti deməkdir.

Biznes fəaliyyəti ilə məşğul olanlara isə kommersant, ticarətçi və ya sahibkar deyilir.

Kiçik və orta biznes istənilən iqtisadiyyatın əsasını təşkil edir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kiçik biznes ölkənin ÜDM-nin təxminən 50%-ni təşkil edir. Bir çox inkişaf etmiş ölkələr kiçik biznesin inkişafını dəstəkləyir, çünki kiçik biznes həm də orta təbəqənin formalaşması üçün əsasdır, mövcudluğu və ölçüsü dövlətin iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirir.

Kiçik və orta biznes müasir bazar idarəetmə sisteminin əsas elementidir, inkişaf etmiş bazar iqtisadiyyatının mövcudluğunun təminatıdır. Kiçik biznes iqtisadi və elmi-texniki tərəqqinin hərəkətverici qüvvələrindən biridir və iqtisadiyyatın bütün sahələrində iş yerlərinin əsas təchizatçısıdır.

Kiçik və orta biznesin səviyyəsi və sahibkarların fəaliyyəti əsasən ölkənin demokratikləşmə səviyyəsini və iqtisadiyyatının açıqlığını müəyyən edir. Dövlət kiçik biznesi dəstəkləməklə əhalinin rifahının yaxşılaşdırılması və dövlətdə orta təbəqənin faizinin artırılması problemlərini həll edir (Мацибора В.І., Збарський В.К., Мацибора Т.В., 2018: c.312).

İqtisadiyyatı inkişaf etmiş dövlətlərin büdcəsini doldurmağın əsas vasitəsi kiçik biznesdən əldə olunan vergi gəlirləridir. Kiçik biznes rəqabəti, iqtisadi təşəbbüskarlığı və ölkə vətəndaşlarının fəallığını artırmağa imkan verir ki, bu da mal və xidmətlərin qiymət artımının qarşısını alır, sahibkarları məhsulun keyfiyyətini daim yaxşılaşdırmağa və yeni texnologiyalar tətbiq etməyə sövq edir.

Kiçik və orta biznesin inkişafı və dəstəklənməsi işsizlik probleminin həlli vasitələrindən biridir - inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə vətəndaşların 50-90%-i bu sahədə çalışır.

Kiçik və orta biznesin rolu haqqında məlumatlılıq 1980-ci illərdə, ilk növbədə ABŞ və Böyük Britaniyada yaranmışdır. Məlum olub ki, iri müəssisələr yüksək xərclər çəkir, ətraf mühit üçün təhlükə yaradır və innovasiyaların tətbiqinə uyğunlaşdırılmayıb, yeni iş yerlərinin açılmasına yönəlməyib.

Eyni zamanda, ictimaiyyətin və hökumətlərin diqqətini kiçik müəssisələrin təkcə iş yerlərinin və gəlirlərin yaradılmasında deyil, həm də iqtisadiyyatın yenidən qurulmasında oynadığı mühüm rola yönəldən araşdırmalar və ağ sənədlər dərc edilmişdir.

Kiçik və orta müəssisələrin üstünlüyü ondan ibarətdir ki, onlar böhran dövründə iri müəssisələrdən daha çox inkişafa uyğunlaşırlar. İri firmalar iqtisadiyyatdakı dəyişikliklərə çevik reaksiya verə bilmirlər. Almaniya, Fransa, ABŞ və bir çox digər inkişaf etmiş kapitalist ölkələrinin iqtisadi siyasətində kiçik sahibkarlığın dəstəklənməsi və inkişafı məsələləri xüsusi yer tutur.

Kiçikvə orta müəssisələr iqtisadiyyatın ümumi vəziyyətinin bir növ göstəricisinə çevrilmişdir.

Biznesin iqtisadi mahiyyətini müəyyən edən əsas kateqoriyalara aşağıdakılar daxildir:

- investisiya mexanizmlərindən, o cümlədən investisiya mənbələrinin axtarışı və seçilməsi üsullarından, investorlarla işin forma və istiqamətlərindən, investisiya qoyulmuş maliyyə və maddi resursların geri qaytarılma müddətindən, kanallarından, üsullarından istifadə;

- məhsulların istehsalı, emalı və satışı mərhələləri və mərhələləri üzrə uzunmüddətli proqramlardan, orta və qısamüddətli layihələrdən və biznes planlardan ibarət sahibkarlıq fəaliyyətinin proqramlaşdırılması və planlaşdırılması;

- biznes prosesinin maliyyə, kredit və maddi-texniki təminatı;

- ümumi qiymət siyasəti və bazarın vəziyyətindən asılı olaraq sahibkarın məhsullarının, işlərinin və xidmətlərinin alış, satış və pərakəndə satış qiymətlərinin çevik tənzimlənməsi;

- müəssisənin struktur bölmələrində kommersiya və təsərrüfat uçotunun təşkili;

- sahibkarlıq subyektinin işçilərinin əməyinin stimullaşdırılması və həvəsləndirilməsi;

- Vergi Məcəlləsinin və digər federal qanunların norma və qaydaları çərçivəsində təşkilatların vergitutma bazasının normallaşdırılması;

- təkcə satış, ticarət və satınalma əməliyyatları sferasını deyil, həm də keyfiyyət, qiymət, çeşid, bazara çıxarılma müddəti və məhsulların digər parametrlərinə görə rəqabətqabiliyyətli məhsulların istehsalına yönəlmiş istehsal sferasını əhatə edən marketinq;

- əmtəə, pul və digər əməliyyatların müntəzəmliyi, etibarlılığı və şəffaflığı əsasında mühasibat uçotunun və hesablaşmaların təşkili.

Dünya təcrübəsində müəssisələrin kiçik kimi təsnif olunduğu ümumi meyarlar bunlardır:

 İşçilərin sayı

 nizamnamə kapitalının ölçüsü;

 aktivlərin miqdarı,

 dövriyyənin həcmi (mənfəət, gəlir).

Dünya Bankının məlumatına görə, müəssisələrin kiçik biznes (biznes) kimi təsnif edildiyi göstəricilərin ümumi sayı 50-dən artıqdır. Bununla belə, yuxarıda göstərilən meyarlardan ən çox istifadə olunur.

### 3.2. Azad olunmuş ərazilər və yeni sahibkarlıq subyektlərinin yaradılması

2020-ci ilin oktyabr və noyabr ayları Azərbaycanın unudulmaz və şərəfli tarixi kimi yaddaşlarda iz qoymuşdur. Həmin dövrdə Dağlıq Qarabağ problemi milli ordu

tərəfindən həll edilmiş və ölkənin 20% hissəsi işğaldan azad edilmişdir. İqtisadi baxımdan Dağlıq Qarabağ ərazisi, Azərbaycanın istehsal potensialının çox böyük hissəsindən biridir. İtirilmiş ərazilər, yəni ölkənin 1/5 hissəsi 300000 iş yeri, əhalinin təxminən 12% hissəsi deməkdir.

**Cədvəl 13: Azərbaycanın əsas makro iqtisadi göstəriciləri**

| İl, ay | Ümumi Daxili Məhsul (ÜDM) | | ÜDM-nin defalyatoru | Qeyri-neft ÜDM | | Əsas Kapitala investisiya | |
|---|---|---|---|---|---|---|---|
| | Cəmi, mln. manat | Artım tempi, % | | Cəmi, mln. manat | Artım tempi, % | Cəmi, mln. manat | Artım tempi, % |
| 2021 | | | | | | | |
| 01 | 6256,8 | 97,5 | 96,5 | 3 444,7 | 100,1 | 724,0 | 72,5 |
| 02 | 12019,0 | 96,8 | 99,3 | 6 611,4 | 99,6 | 1 338,4 | 68,0 |
| 03 | 18921,5 | 98,7 | 106,9 | 10 413,3 | 102,1 | 2 365,2 | 80,6 |
| 04 | 25078,6 | 99,8 | 110,8 | 13 638,4 | 104,1 | 3 752,8 | 91,3 |

**Mənbə:** Azərbaycan Respublikasının Mərkəzi Bankı (https://www.cbar.az/page-41/macroeconomic-indicators, 2021)

**Cədvəl 14: Azərbaycanın əsas makro iqtisadi göstəriciləri**

| İl, ay | Əhalinin nominal gəlirləri | | Nominal orta aylıq əmək haqqı | | İstehlak qiymətləri indeksi | |
|---|---|---|---|---|---|---|
| | Cəmi, mln. manat | Artım tempi, % | Cəmi, manat | Artım tempi, % | əvvəlki aya nisbətən, % | orta illik, % |
| 2021 | | | | | | |
| 01 | 4 011,2 | 98,7 | 690,9 | 97,0 | 1,2 | 3,3 |
| 02 | 7 979,9 | 95,8 | 692,3 | 97,2 | 1,6 | 3,7 |
| 03 | 13 455,9 | 98,9 | 713,2 | 95,8 | 0,9 | 3,9 |
| 04 | 17 037,9 | 98,9 | - | - | 0,3 | 4,0 |

**Mənbə:** Azərbaycan Respublikasının Mərkəzi Bankı (https://www.cbar.az/page-41/macroeconomic-indicators, 2021)

Təbii ki, bu keçid dövründə müəyyən çətinliklər ola bilər: ümumdaxili məhsulda istehsaldakı müxtəlif sahələrinin payının az olması (xidmət sahəsinin yüksək payı), kiçik və orta sahibkarlıq subyektlərinin sayının artmasına baxmayaraq ümumi istehsal

həcmində artım sürətinin aşağı olması, iqtisadiyyatın elmi və yüksək texnoloji sahələrinin zəif tempi, ölkəyə cəlb edilən kapitalda, yeni investisiyalarda qeyri-neft sektorunun az hissəsi, bank sektorunda maliyyələşmə baxmından yüksək büdcə məhdudiyyətlərinin yaranması. Bunlara əsaslanaraq demək olar ki, iqtisadi böyüməni və inkişafı qorumaq üçün dövlətin rolu böyükdür. Lakin sərbəst iqtisadi münasibətlər, azad olunmuş ərazilərdə yeni sahibkarlıq subyektlərini və sərbəst bazar iqtisadiyyatı qurmaq üçün dövlətin müdaxiləsi minimum səviyyəyə endirmək lazımdır.

İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatının gələcəyi ilə bağlı bir sıra müsbət fikirlər və suallar əmələ gətirdi. İşğal olunmuş ərazilər bazar iqtisadiyyatına keçidin qarşısını alan mühüm problemlərdən biri hesab olunurdu və Dağlıq Qarabağın Azərbaycan iqtisadiyyatına yeni nəfəs gətirməsi üçün yaxşı düşünülmüş siyasətə ehtiyac vardır. Təbii ki, ölkənin ərazi bütövlüyünün bərpası əsas iqtisadi əhəmiyyətə malikdir. Pandemiya dövrünün olması və əlavə olaraq ölkədə müharibə ilə bağlı gözləntilərin olması xarici investorlar tərəfindən cəlb olunan investisiya səviyyəsinin azalmasına zəmin yaradırdı. Bu hal isə ölkə iqtisadiyyatında, kiçik və orta sahibkarlıq subyektlərinin artımında və fəaliyyətində ciddi risk idi. 2012-ci ilədək ölkədə olan ümumi investisiyanın təxminən 70% hissəsi xarici investorlar tərəfindən qoyulurdu və bunun 30% hissəsini qeyri-neft sektoru təşkil edirdi.

Müharibənin qısamüddətli olması və Azərbaycanın həm iqtisadi, həm də digər məsələlərlə bağlı dünyaya öz gücünün göstərməsi investorlar üçün təhlükəsizlik zəmanəti kimi qəbul olundu. Buna misal olaraq müharibə yekunlaşma bitdikdən sonra Azərbaycan şirkəti AzərEnerji ASC-nin İtaliyanın Ansaldo Energia şirkəti ilə işğaldan azad olunmuş torpaqlarda enerji infrastrukturunun yaradılması ilə bağlı müqavilə imzalandı.

Təxminən 30 illik müddət ərzində Dağlıq Qarabağ ətrafındakı yaşayış yerləri, iş yerləri, sahibkarlıq subyektləri tamamilə dağıdıldığından bərpa olunmasına ehtiyac vardır. Bundan öncə isə ərazinin minalardan təmizlənməsi prosesi həyata

keçirilməlidir. Təxminlərə əsasən, Dağlıq Qarabağ ərazisinin minalardan tamamilə təmizlənməsi prosesi 10 il ərzində yekunlaşacaqdır.

İşğal olunmuş ərazilərin azad olunması nəticəsində bölgədə olan şərait, təbii sərvətlər, zaman keçdikcə infrastrukturun bərpa olunması yeni sahibkarlıq subyektlərinin yaranması üçün böyük imkan yaradır. Yeraltı sərvətlərin olması və onların çıxarılması üzrə işlərin aparılması, yeni yaşayış binalarının, biznes mərkəzlərinin tikintisi işlərinin aparılması üçün yeni şirkətlər yaranmış və bölgəyə cəlb olunmuşlar. Dövlət bu baxımdan kiçik və orta sahibkarlara tam dəstək göstərir. Əlavə olaraq Türkiyəyə Naxçıvan vasitəsilə yolların açılması sahibkarların inkişafı üçün şansları artırır. Sahibkarlar tərəfindən Türkiyə Cümhuriyyətindən sifariş olunan xammalın, avadanlıq və digər vasitələrin ölkəyə gətirilməsi daha da asanlaşacaqdır.

Dağlıq Qarabağın təxminən 30 il müddətində işğal altında olması ölkə iqtisadiyyatının hərtərəfli inkişafına, qonşu dövlətlərlə əlaqələrin daha da genişlənməsinə, sahibkarlıq subyektlərinin yüksək templə artımına, iqtisadiyyatın digər qollarının yaranması ciddi təsir göstərmişdir. Dağlıq Qarabağ ərazisinin azad olunması qeyri-neft sektorunun inkişafı üçün böyük töhfə verəcəkdir. Qızıl, mis, dəmiri filizi yataqlarının olması istehsal müəssisələrinin yaranmasına, zəngin meşə sahəsi və bərəkətli torpaqların olması kənd təsərrüfatı sektorunun, mövqeyin dağlıq, təbiətinin gözəl olması turizm sahəsinin və s. sektorların inkişafına səbəb olacaqdır. Bu dövlətin strateji siyasətlərindən biridir və hökümətin kiçik və orta sahibkarlıq subyektlərinin yaranması və intensiv inkişafı üçün əhəmiyyətli faktordur.

İşğaldan azad olunmuş ərazilər işğaldan əvvəlki dövr üçün Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi 35-40% qədərini təmin edirdi. Ermənistanın işğal nəzarəti zamanı bu zona düşmən üçün səmərəsiz olmuş və kənd təsərrüfatı sektoru üzrə potensialından istifadə edə bilməmişdir. Təkcə Qarabağ ərazisi üzrə 250 min hektardan çox məhsuldar torpaqların mövcud olmasına baxmayaraq, həmin ərazilərin cəmi 7 %-i bu məqsədlər üçün istifadə edilmişdir. Beləliklə də, çayların əsasən şimalda yerləşməsi, bu ərazilərdə yeraltı suların dərində

yerləşməsi, əkin üçün sahələrin cənubda olması, işğaldan əvvəl mövcud olmuş irriqasiya sisteminin məhv edilməsi ilə bu ərazilərin istifadə üçün səmərəsiz olaraq qalması ilə nəticələnmişdir. Əkin sahələri üzrə məhsuldarlıq aşağı səviyyədə olmuş və hər hektarda cəmi 10-12 sentner taxıl götürülmüşdür. Halbuki bu rəqəm Azərbaycanın işğalından əvvəl 21-25 sentner olub (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022). İşğaldan azad olunan torpaqlarımızda üzümçülük, pambıqçılıq, tütünçülük, meyvə-tərəvəz, baramaçılıq, bostançılıq və bir çox heyvandarlığın inkişafında böyük potensial mövcuddur. Eyni zamanda burada emal sektoru və ərzaq sənayesinin inkişafı üçün potensial var.

Ərazilərin işğaldan azad olunması həm də ölkəmizdəki ərzaq təhlükəsizliyinin təmin olunmasına ciddi töhfələr verəcək. Xüsusən də heyvandarlıq sektoru üzrə məhsulların özünütəminetmə səviyyəsi yaxşılaşacaqdır. Hal-hazırda ölkəmizdə özünütəminetmə səviyyəsini təhlil etdikdə ət və ət məhsullarının 82,5 %, süd ilə süd məhsulları üzrə ümumi 86,2% olduğunu görə bilərik (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022). Proqnozlara əsasən, işğaldan azad olunan ərazilərdə təsərrüfat sektoru bərpa ediləndən sonra burada həmin məhsullarla özümüzü tam təmin etməmiz mümkün olacaqdır. Həmçinin Azərbaycanda olan dənli (çəltik daxil deyil) bitkilər üzrə təhlil zamanı özünü təmin etmə səviyyəsinin 70 faizə çatdığını görə bilərik. Torpaqlarımızın azad edilməsi bizə geniş imkan verəcəkdir ki, həmin bu sektorlarda da vəziyyəti yaxşılaşdıraq.

Ötən dövr ərzində düşmənin büdcəsində işğalla bağlı olaraq ümumi 8,6 milyard dollar həcmli xərc yaranmışdır ki, həmin xərc də ölkəyə böyük yükdür. Müqayisəli yanaşma ilə deyə bilərik ki, qeyd edilən müddət ərzində düşmənin iqtisadiyyatında qoyulan birbaşa investisiyaların həcmi ümumi 8 milyard dollar səviyyəsində idi. Hərbi xərclər üzrə büdcədə dominant olması burada digər sahələr üzrə xüsusilə təhsil, elm, texnologiya, səhiyyə, həmçinin sosial sektorun maliyyələşdirilməsində mühüm problem yaratmışdır. Nəticədə də hər 4 nəfərdən biri yoxsul sayılan Ermənistan üçün dünyada ən militarist iqtisadiyyata sahib ölkələr arasında yer almışdır. Göründüyü

kimi, Qarabağın işğal altında saxlanılması Ermənistan üçün heç bir müsbət iqtisadi potensialı olmamışdır və nəzərdə tutduqları bütün perspektiv planların hər biri iflasa uğradılmışdır. Başqa sözlə, Ermənistan üçün Qarabağ iqtisadi yük olmuş, Azərbaycan üçün isə bu ərazi iqtisadi potensialdır.

Azad olunmuş bölgələrimiz bərpa olunduqdan sonra mövcud iqtisadi gücümüz təxminən 50 faizə qədər əlavə güc qatılacaqdır. İlk növbədə ərazidə infrastruktur yaradılmalı, bundan sonra isə azad edilmiş bölgələrin potensialının realizəsi məqsədi ilə tələb edilən ilkin şərtlərin hər birinin həllini tapmalıdır. Nümunə kimi ölkəmizdə bögələrin sosial-iqtisadi inkişafıyla bağlı indiyə qədər qəbul edilən və icra olunan Dövlət Proqramlarını göstərə bilərik. Bölgələrimizdə sürətli inkişaf məhz ərazidəki həmin sənədlərin hesabına baş tutmuşdur.

Ümumiyyətlə, Azərbaycanın Qarabağ bölgəsi iqtisadi inkişaf baxımından yeni coğrafi drayveri, yəni artım mərkəzi olacaqdır. Həmin bölgədə sərmayə qoyuluşları və quruculuq işləri üzrə ölkəmizdə ÜDM-in artımını sürətləndirəcəkdir.

### 3.3. Kiçik və orta sahibkarlara göstərilən diqqət

Regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramlarının ən uğurlu nəticələrindən biri də ölkədə daha əlverişli biznes və investisiya mühitinin formalaşması, biznes fəaliyyəti ilə məşğul olan şəxslərin fəaliyyət imkanlarının genişlənməsi, bölgələrin istehsal potensialının effektiv realizə edilməsidir. Biznes mühitinin şəffaflaşdırılması və genişləndirilməsi dövlətin KOS-lara olan diqqətini bir daha göstərir. Təsis edilmiş investisiya fondları, dövlət qurumları kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi tədbirləri, yeni layihələri təmin etmək də davam edir. Yeni layihələr, KOS-lara olan güzəştli kreditlər və subsidiyalar 2020-ci ildə dünyada yayılmış Covid-19 pandemiyası zamanı daha çox özünü göstərdi.

Güzəştli kreditlər olaraq Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu

(SİF), Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) sahibkarlar üçün yeni təkliflər irəli sürdü. Sahibkarlığın İnkişafı Fondu pandemiyadan zərər çəkmiş sahələrin maliyyə resursları ilə təmin olunması məqsədilə aşağı dərəcədə faizlə böyükhəcmli kreditlərin verilməsində təşəbbüs göstərdi. Təbii ki, fəaliyyət sahələrinin ilkin təhlili və monitorinqi zamanı öncəki illərə nisbətən yanaşmada və şərtlərdə yumşalmaların olması da dövlətin KOS-lara olan diqqətini açıq-aşkar göstərir. Əlavə olaraq isə sahibkarlıq subyektlərinin müvəkkil bankda 10.03.2020-ci il tarixinə olan cari kredit öhdəliyinin qalıq məbləğinə əsasən növbəti 12 ay ərzində ödənilmiş faizlərin 50% hissəsinin subsidiyalaşdırılmasını da qeyd edə bilərik. Pandemiyadan zərər çəkmiş sahələrin iflas etməməsi üçün dövlət bir çox layihələr həyata keçirdi, sahibkarlara maddi yardım göstərdi. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi digər dövlət strukturları ilə yeni layihələrin icrasına qol çəkdi, Dövlət Başçısının fərman və sərəncamlarına əsasən KOS-lara fəaliyyətlərini davam etdirmək üçün köməklik göstərdi.

Əlavə olaraq isə dövlət büdcəsindən vəsait ayrılaraq sahibkarlıq subyektlərinin müvəkkil bankdakı hesablarına kompensasiya məbləği köçürüldü. Azərbaycan Respublikasının Dövlət Başçısının 2020-ci il 19 mart tarixində Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar ölkə iqtisadiyyatında baş vermiş geriləmə və mənfi təsirlərin aradan qaldırılması məqsədilə Tədbirlər Planı təsdiq etmişdir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən sahibkarlıq subyektlərinə və orada çalışan işçilərə maddi yardımdan əlavə, mənəvi dəstək də göstərilmişdir. Onların təhlükəsizliyinin təmin olunması məqsədilə Dövlət Başçısı gündəlik işçi sayını 30-50%-dək azaltmışdır. İş yerlərində dezinfeksiya işlərinin aparılması, işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tədbirlərin görülməsi Dövlət Başçısı tərəfindən birbaşa nəzarət edilirdi. Qeyd olunanlar, dövlətin və ona bağlı olan qurumların sahibkarlıq subyektlərinə olan diqqətinin açıq göstəricisidir.

Neftdən gələn gəlirlərin azalması kiçik və orta sahibkarların bazarda, iqtisadiyyatda olan rolunu bir daha təzahür etdirdi. Dövlətin biznes fəaliyyətinin

davamlılığı üçün pandemiyadan zərər çəkən sahibkarların bank hesabına kompensasiya vəsaitinin köçürməsi, məşğulluğun azalmaması üçün işçilərin əmək haqqı ödənişlərini təmin etməsi, dövlət fondlarının hesabına banklardan aşağı kredit əldə etmək imkanın yaradılması kiçik və orta biznesin qiymətləndirilməsini, onlara olan dövlət qayğısını əks etdirir. Pandemiyadan zərər çəkən sahibkarlara yardım edilməsi bir çox kiçik və orta biznesin tam rəsmiləşməsinə və vergiyə cəlb olunmasına səbəb olmuşdur ki, bu vəziyyət həm dövlət üçün, həm də sahibkarlar üçün müsbət hal hesab olunur (Gentrit Berisha, Kosovo Justina Shiroka Pula, 2015).

Kiçik və orta sahibkarlıq üçün əlverişli institusional mühitin yaradılması iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun şaxələnmə prinsipi üzrə genişlənməsinə, həmçinin yeni iş yerlərinin açılmasına və eyni zamanda, onun modernləşməsinə səbəb olacaq. Qlobal qeyri-sabitlik şəraitində vergi siyasəti, ilk olaraq, real sektorun dəstəklənməsinə yönəlməli, investisiya siyasətinin və iqtisadi rəqabət qabiliyyətinin qorunmasında stimullaşdırıcı olmalı, çevik olmalı, innovativ sahələrin inkişafına dəstək verməlidir. Ona görə də, Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sektoral inkişaf üçün maliyyə mexanizmləri önəm qazanır (Qocayev İ., 2021). Mövcud vergi dərəcələrinə yenidən baxılması zərurəti həm iqtisadi, həm də sosial baxımdan aktual məsələ kimi görünür. Mütərəqqi miqyasdan istifadə, ilk növbədə, təkcə respublika deyil, həm də regional büdcələrin gəlirlərini artırmağa imkan verəcək ki, bu da əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş sosial proqramların həyata keçirilməsində istifadə oluna bilər. İki "Doing Business" indikatoru həm Biznesə başlamaq, həm də vergi ödəməklə birbaşa vergi məsələləri ilə bağlıdır. Ölkəmiz hər iki göstərici üzrə mövqeyini xeyli yaxşılaşdırıb, son bir ildə Azərbaycan Biznesə başlamaq üzrə 18-dən 9-cu yerə, Vergilərin ödənilməsi üzrə isə 35-dən 28-ci yerə yüksəlib (World Bank Group, 2020). Bu göstəricilər ondan xəbər verir ki, Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sektoral inkişaf üçün böyük potensial var (Rəşid L., 2020). Kölgə iqtisadiyyatının azaldılması, elektron ödənişlər infrastrukturunun inkişafı və institusional bazanın gücləndirilməsi, innovativ

texnologiyaların ölkədə ərazidə tətbiqinin genişləndirilməsi, fiziki və sahibkarlıq subyektlərinin elektron ödəniş xidmətlərindən ərazidə istifadəyə cəlb edilməsi Dövlət Vergi Xidmətinin fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir.

Nağdsız ödənişlərin həcmini artırmaq və əhatə dairəsini genişləndirmək məqsədilə vergi xidməti bu sahədə beynəlxalq tendensiyaları daim diqqət mərkəzində saxlayır (Mamedov Z.F., Gasimov A., 2020). Dövlət Vergi Xidməti (DVX) tərəfindən 2020-2022-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramının icrasına dair Tədbirlər Planı təsdiq edilib və bu sahədə fəaliyyətin səmərəliyinin təşkili üçün müasir standartlar tərtib edilib (https:// www.taxes.gov.az/ru /page/umumi-melumat, 2022).

Bundan əlavə, 2020-ci il iyunun 2-də Azərbaycanda Vergi Məcəlləsinə dəyişikliklər qəbul edilib, müəssisələr üçün mənfi nəticələrin azaldılması məqsədilə müvəqqəti vergi güzəştləri və məzuniyyətlər tətbiq edilib. Tədbirlərə il ərzində torpaq və əmlak vergilərinin ləğvi, habelə pandemiyadan xüsusilə ağır zərər çəkən müəssisələr üçün gəlir vergilərinin və sosial sığorta haqlarının azaldılması daxildir. Hökumət həmçinin fərdi sahibkarlara və biznes sahiblərinə maliyyə dəstəyi göstərməyə və onlara əmək haqqının ödənilməsinə kömək etməyə çalışıb. Bunun üçün birbaşa olaraq aidiyyəti şəxslərin bank hesablarına vəsaitlərin köçürülməsi üçün onlayn platformadan istifadə edilir. 2020-ci ilin iyul ayının sonunadək 100 mindən çox mikro sahibkara 63,55 milyon manat (təxminən: 37,4 milyon ABŞ dolları) vəsait daxil olub, 30 minə yaxın sahibkarın əmək haqlarının ödənilməsinə köməklik göstərilməsi ilə bağlı müraciəti isə ümumilikdə 98 milyon manatla (təxminən: 57,7 milyon dollar) müsbət cavab alıb. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan dövləti işğaldan azad olunmuş rayonlardan sosial-iqtisadi inkişaf üçün də bənzər tədbirləri həyata keçirə və sahibkarları maliyyə resurslari ilə təmin edə bilər. Düşünürəm ki, bu ərazilərdə sahibkarlığı təşviq etmək üçün azad iqtisadi zonalar yaradıla, uzunmüddətli vergi azadolmaları tətbiq edilə bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İqtisadiyyatın stabilliyinə və artımına görə dünyada qabaqcıl ölkələrdən biri olmaq üçün iqtisadiyyatın şaxələndirilməsi önəmlidir. Kiçik və orta sahibkarlara dövlət tərəfindən göstərilən diqqət bu yöndədir. Dövlət sahibkarların yanındadır və onların fəaliyyətini yüksək qiymətləndirir. İqtisadiyyatda kiçik və orta sahibkarların rolunun əhəmiyyətli olması, onların hər bir iqtisadi dəyişikliyə tez bir zamanda reaksiya göstərərək adaptasiya olması üçün dövlət bir çox addımlar atır. Bizneslərin maliyyələşməsi önəmli olduğu qədər infrastruktur, qanunvericilik, informasiya bazası, bazarın düzgün formalaşması və s. kiçik və orta biznesin qiymətləndirilməsində önəmli faktorlardandır. Qeyd olunan sahələrlə bağlı bir çox dəyişikliklər baş versə də, bir çox boşluqlar hələ də qalmaqdadır.

Qeyd olunanlar kiçik və orta sahibkarlığın fəaliyyətinin iqtisadiyyatda vacib ünsürlərdən biri olmasını göstərir. Qarşıya qoyulan əsas məqsədlər isə sahibkarlığın intensiv inkişafına təsir edən mənfi amillərin aradan qaldırılmasıdır. Təqdim olunacaq tədbirlərin həyata keçirilməsi uzunmüddətli dövrdə iqtisadiyyata öz müsbət töhfəsini verəcəkdir. İqtisadiyyatda olan qeyri-qanuni halların aradan qaldırılması dövlətin müdaxiləsindən sonra tamamilə mümkündür. Təbii ki, dövlət tərəfindən yaradılmış yeni qanunlara, normativ aktlara sahibkarlar tərəfindən riayət olunması vacibdir və bu məsələ dövlət tərəfindən ciddi nəzarət olunmalıdır. Aşağıda qeyd olunan təkliflərin yerinə yetirilməsi iqtisadiyyatda şəffaflığın artmasına səbəb olacaqdır.

- texniki və informasiya bazasının yüksəldilməsi;
- infrastrukturun formalaşdırılması;
- haqsız rəqabətin və inhisarlaşmanın qarşısının alınması;
- dövlətin məqsədli proqram və layihələrinin kiçik və orta biznes sahəsinə yönəltməsi;
- sahibkarların maraqlarının qorunması üçün dövlət tərəfindən yeni və müasir standardlara uyğun qanun və normativ aktların qəbul olunması;

- vergi siyasətində yumşaldıcı tədbirlərin həyata keçirilməsi;
- ölkə regionların kəskin diferensiassiyasının aradan qaldırılması;

Mövcud vəziyyət iqtisadiyyatda mənfi hallar yaratsa da, ölkə olaraq bazarın qorunması və xilas olması üçün kiçik və orta sahibkarlara ehtiyac vardır. Kiçik və orta biznesin inkişafı həm dövlət üçün, həm də cəmiyyət üçün səmərəlidir. Sosial rifahın yüksəldilməsi digər sahələrin inkişafı ilə birbaşa bağlıdır. Bütün qeyd olunan şərtləri nəzərə alaraq sahibkarlıq fəaliyyəti düzgün qiymətləndirilməli və daima dövlət dəstəyi göstərilməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. AR İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası, 22 iyun 2016, № 940,

2. AR-da kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramının (2002-2005-ci illər) təsdiq edilməsi haqqında, 17 avqust 2002, №753.

3. AR-da kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair SYX, 6 dekabr 2016

4. AR-da sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında, 31 iyul 2018, № 224.

5. AR-nın Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 iyun 2018, № 148.

6. AR-nın milli iqtisadiyyat perspektivi üzrə SYX, AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş, 6 dekabr 2016, № 1138.

7. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, 13 yanvar 1995, №952.

8. Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların AR-nın iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında AR Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı

9. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi

göstərilməsi Qaydasının təsdiq edilməsi haqqında AR Prezidentinin Fərmanı, 29 may 2019, №713.

10. Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarlarının təsdiq edilməsi haqqında AR Nazirlər Kabinetinin Qərarı, 21 dekabr 2018, №556.

11. Sahibkarlıq fəaliyyəti haqqında AR-nın Qanunu, 15 dekabr 1992, №405.

12. Əhmədov M.A., Hüseyn A.C. (2011) İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, İqtisad Universiteti Nəşriyyatı, Bakı, 121s.

13. Əliyev A., Şəkərəliyev A., (2002) Bazar İqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti, İqtisad Universiteti Nəşriyyatı, Bakı, 440s.

14. İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi (Bakı 2015) Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyə çıxışının artırılması.

15. İmanov Ə.Ş., (2009) Kiçik Sahibkarlıq, Elm Nəşriyyatı, Bakı, 368s.

16. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 dekabr 2018, №434.

17. Musayev A. (2014) İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması, Azərbaycan Universiteti nəşriyyatı, Bakı, 184s.

18. Süleymanov E., Aras O.N., (2016) Azərbaycan iqtisadiyyatı, Şərq-Qərb Mətbəəsi, Bakı, 412s.

**İngilis dilində**

1. International Financial Reporting Standard for Small- and Medium-Sized Entities - ifrs.com.

2. The World Bank Financial and Private Sector Development Consultative Group to Assist the Poor January 2011- Small and Medium Enterprises A Cross-Country Analysis with a New Data Set.

3. Theoretical and Applied Economics Volume XXIII, The importance and role of small and medium-sized businesses, 2016, No.3(608), pp.331

4. Klaus N. (2016) “Competitive strategies for small and medium enterprises”, p.281

5. Bayramov V., Hasanov R., Aghayarli L., Kadyrov Z., Aghahasanli İ., Isayev S. (2017) “A Comparative Study on Development of Small and Medium Enterprises (SMEs)”, p.73

6. Gentrit B., Kosovo J. S. P. “Defining Small and Medium Enterprises: a critical review”, 2015. Vol.1, No.1, pp.17

7. Suleymanov E., Yusifov S. “Problems Encountered during the Transition to Market Economy in Azerbaijan and Solution Attempts”, Expert Journal of Economics, 2014, Vol.2, No.2, pp.45

**İnternet resursları**

1. http://eco.gov.az/.

2. http://www.ecoreform.az/contact-us

3. https://azertag.az/xeber/1619175

4. https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_seher_ve_kendlerimiz-1622227

5. https://azertag.az/xeber/Rauf_Haciyev_Kelbecer_rayonunun_tebietine_ve_abidelerine_vurulmus_ziyan_qisa_muddetde_hesablanacaq_ve_muvafiq_tedbirler_gorulecek-1655635

6. https://azertag.az/xeber/Vusal_Qasimli_Qarabagin _boyuk_iqtisadi_potensiali_var-1620053/

7. https://ccbs.news/ru/article/2351/

8. https://report.az/ru/energetika/azerbajdzhanskij-klondajkarmyane-dolzhny-vozmestit-usherb-ot-ekspluatacii-mestorozhdenij-v-karabahe/

9. https://vergiler.az/news/economy/11072.html

10. https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/azerbaycanin-isgal-altindaki-topraklari-karabag/1989594

11. https://www.stat.gov.az.

12. https://www.taxes.gov.az/az/page/transfer-qiymetlerinin-mueyyen-edilmesi-ve-tetbiqi-qaydalari.

13. worldbank.org.

14. https://e-qanun.az/framework/7920

15. https://www.stat.gov.az/source/entrepreneurship/

16. https://president.az/az/articles/view/54466

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü..............................................22
**Cədvəl 2:** Ümumi Daxili Məhsul (illər üzrə).......................................................................................39

**Cədvəl 3:** Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı (2018-ci il üzrə)**....40**
**Cədvəl 4:** Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı (2019-cu il üzrə)**...41**
**Cədvəl 5:** ÜDM, neft və qeyri-neft sektorundan daxil olan gəlirlər**.................................................41**
**Cədvəl 6:** Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri**........... 44**
**Cədvəl 7:** Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı, faizlə**..........45**
**Cədvəl 8:** Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı **.............................46**
**Cədvəl 9:** Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü **......................................................................................................................................46**
**Cədvəl 10:** İqtisadi fəaliyyət üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrdə çalışan işçilərin sayı, nəfər (2019-2020) **.........................................................................................47**
**Cədvəl 11:** Sahibkarlığın İnkişafı Fondunun məhsulları barədə məlumat**........................................49**
**Cədvəl 12:** Kənd təsərrüfatı məhsullarının ixracı **....................................................................53**
**Cədvəl 13:** Azərbaycanın əsas makro iqtisadi göstəriciləri **.............................................................66**
**Cədvəl 14:** Azərbaycanın əsas makro iqtisadi göstəriciləri **.............................................................67**

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Neft və qeyri-neft sektorunun Azərbaycan iqtisadiyyatındakı payı**.................................40**
**Qrafik 2:** Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü**.............................58**